# KİTABXANAÇILIQ VƏ İNFORMASİYA FAKÜLTƏSİ BAKI DÖVLƏT UNİVERSİTETİNİN 100 İLLİYİ ƏRƏFƏSİNDƏ

**Xəlil İsmayılov**
*BDU-nun professoru, Əməkdar mədəniyyət işçisi, tarix üzr elmlər doktoru, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki*

**Nadir İsmayılov**
*BDU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki*

*Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvəti, milli iftixarıdır*

***HEYDƏR ƏLİYEV***

***Kitabxanaçılıq və informasiya fakültəsi Bakı Dövlət Universitetinin 100 illiyi ərəfəsində***
***Xülasə:*** *Məqalədə Bakı Dövlət Universitetinin təntənəli 100 illiyi ərəfəsində onun ayrılmaz tərkib hissəsi olan Kitabxanaçılıq-informasiya fakültəsinin yaranması, inkişafı, tədris-pedaqoji və elmi potensialı və gələcək perspektivləri fonunda geniş ümumiləşdirilmə aparılmışdır.*
***Библиотечно-информационный факультет накануне 100-летия Бакинского Государственного Университета***
***Резюме:*** *Статья была обобщена в свете создания Библиотечно-информационного факультета, его неотъемлемой части, накануне торжественного празднования Бакинского государственного университета, накануне его развития, учебно-педагогического и научного потенциала и дальнейших перспектив.*
***Librarianship and Information Faculty on the eve of the 100th anniversary of Baku State University***
***Summary:*** *The article has been widely summarized in the light of the establishment of the Library-Information Faculty, its integral part, on the eve of the solemn celebration of the Baku State University, on the eve of its development, teaching and pedagogical and scientific potential and future prospects.*
***Açar sözlər:*** *Bakı Dövlət Universiteti, Kitabxanaçılıq-informasiya fakültəsi, ali təhsil, kitabxana, müəllim, tədris, təlim, pedaqoji iş*
***Ключевые слова:*** *Бакинский Государственный Университет, библиотечно-информационный факультет, высшее образование, библиотека, преподаватель, преподавание, обучение, педагогическая работа.*
***Key words:*** *Baku State University, Librarianship and Information Faculty, higher education, library, teacher, teaching, training, pedagogical work*

Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvəti və iftixarıdır. Azərbaycan təhsil sisteminin, milli mədəniyyətinin formalaşmasında, müxtəlif



elm sahələri üzrə tədqiqat işlərinin aparılmasında Bakı Dövlət Universitetinin müstəsna xidmətləri olmuşdur. 2019-cu ilin sentyabr ayının 1-də respublikanın ilk elm və təhsil ocağı olan Bakı Dövlət Universitetinin 100 illiyi tamam olur. Bu şərəfli tarixi günü dövlətimiz, xalqımız, Azərbaycanın böyük ziyalılar ordusu, elm və təhsil xadimləri böyük iftixar hissi ilə qeyd etməyə hazırlaşır.

Azərbaycan elminə, təhsilinə, maarif və mədəniyyətinə yüksək qiymət verən, daim qayğı göstərən ölkə Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin yubileyinin dövlət səviyyəsində keçirilməsi üçün 14 noyabr 2017-ci il tarixli sərəncam imzalamışdır. Sərəncamda deyilir:

"Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin, şərəfli bir yol keçmişdir. Daim Azərbaycançılıq məfkurəsinə sadiqlik nümayiş etdirən universitetin ölkədə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların dərin məzmun kəsb edərək, son texnologiyaların da tətbiqi ilə müasir standartlara uyğun aparılmasında və ümumən milli özünüdərk prosesinin sürətləndirilməsində təqdirəlayiq xidmətləri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32 bəndini rəhbər tutaraq və ölkədə ali təhsilin, elmin ənənələrinin zənginləşdirilməsində, gənc nəslin müstəqil dövlətçilik ideyalarına sədaqət ruhunda, tərbiyəsində mühüm xidmətlərini nəzərə alaraq, Azərbaycan xalqının milli sərvəti Bakı Dövlət Universitetinin 100 illik yubileyinin lazımınca qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. "Bakı Dövlət Universitetinin 100 illik yubileyi dövlət səviyyəsində qeyd edilsin".

Möhtərəm Prezidentimizin bu fərmanı dövlətimizin Bakı Dövlət Universitetinə böyük qayğısının təzahürüdür.

Böyük iftixar hissi ilə demək olar ki, Xalq Cümhuriyyətinin yadigarı olan bu möhtəşəm elm və təhsil məbədgahının işığı zaman keçdikcə, Azərbaycan alimlərinin böyük fədakarlığı sayəsində daha da gurlaşıb, qloballaşan, informasiyalaşan dünyanın bütün mərkəzlərində şölələnir. Buna görə də xalqımız Azərbaycanın təhsil, elm, mədəniyyətinin inkişafı, milli mənliyin, milli şüurun formalaşması tarixində böyük rol oynayan Bakı Dövlət Universitetinin 100 illik şanlı yubileyini təntənəli şəraitdə bayram etməyə hazırlaşır.

Bakı Dövlət Universitetinin aparıcı fakültələrindən biri də Kitabxanaçılıq və İnformasiya fakültəsidir. Azərbaycanda ali kitabxnaçılıq təhsilinin əsası 1947-1948 tədris ilində BDUnun filologiya fakültəsinin nəzdində qoyulmuşdur. Həmin tədris ilində Filologiya fakültəsinin yanında Kitabxanaçılıq şöbəsi təşkil olunmuşdur.Birinci il şöbəyə 20 tələbə qəbul edilimişdir. Şöbənin ilk ixtisas müəllimləri xalq yazıçısı S.Rəhimov, Ə.Qəhrəmanov, H.Tağıyev və M.Səmədova olmuşdur. Şöbədə 1955 ci ildə qiyabi Azərbaycan, 1959 cu ildən isə qiyabi rus bölməsi açılmışdır. 1958-ci ildə kitabxanaçılıq şöbəsi Şərqşünaslıq fakültəsinin tərkibinə daxil edilmişdir. 1962-ci il avqust ayında Bakı Dövlət

Universitetində müstəqil kitabxanaçılıq fakültəsinin təşkil olunması haqqında qərar qəbul olunmuşdur.

1962-ci ildən bugünə kimi Kitabxanaçılıq və informasiya fakültəsinə 4 dekan başçılıq etmişdir:

1. Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov (1962-1970;1979-1993-cü illər).

2. Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Hüseyn oğlu Əliyev (1970-1979-cu illər).

3. Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru, professor Xəlil İsmayıl oğlu İsmayılov(1993-2012-ci illər).

4. Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Azad İsa oğlu Qurbanov (2012-ci ildən indiyədək).

Kitabxanaçılıq və informasiya fakültəsində 4 ixtisas kafedrası fəaliyyət göstərir.

1. Kitabxanaşünaslıq kafedrası-1947-ci ilin oktyabr ayında yaradılmışdır. Kafedranın ilk müdiri Ə.Qəhrəmanov olmuşdur (1947-1959-cu illər). 1959-1963-cü illərdə H.Əlizadə kafedraya rəhbərlik etmişdir. 1962-ci ildən 2017-cü ildək Əməkdar elm xadimi, professor A.A.Xələfov kafedraya rəhbərlik etmişdir. Hazırda kafedraya dosent E.Y.Əhmədov rəhbərlik edir.

2. Biblioqrafiyaşünslıq kafedrası-1968-ci ildə təşkil edilmişdir. Kafedranın ilk müdiri biblioqraf-alim dos.Ə.T.Xələfov olmuşdur (1968-1978 ci illər). 1978-1984-cü illərdə dosent H.Həsənov, 1984-20212-ci illərdə professor Z.H.Əliyev kaferaya rəhbərlik etmişdir. Hazırda kafedraya dosent N.İ.İsmayılov rəhbərlik edir.

3. Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası -1991-1992-ci tədris ilində kitabxanaşünaslıq kafedrasının bazasında təşkil olunmuşdur. Kafedranın ilk müdiri mərhum dosent T.F.Quliyev təyin edilmişdir. 2007-ci ildən kafedranın müdiri tarix elmləri doktoru, professor X.İ.İsmayılovdur.

4. Kitabşünaslıq və nəşriyyat işi kafedrası 1992 ci ildə yaradılmışdır. Kafedra yaranandan 2012-ci ilədək tarix elmləri doktoru, professor B.V.Allahverdiyev ona başçılıq etmişdir. 2012-ci ildən kafedraya dosent K.İ.Aslan başçılıq edir.

Kitabxanaçılıq-informasiya fakültəsində iki istiqamət üzrə ali təhsilli bakalavr kadrlar hazırlanır.

1. HS 151700 - Kitabxanaşünas-biblioqraf

2. HS-061000-Kitabşünaslıq

Magistr pilləsində 4 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.

17-Kitabxanaşünaslıq

2. HSM-150020 –Biblioqrafiyaşnaslıq

3. HSM -150023 Kitabxana fondunun formalaşması və istifadəsi

4. HSM 150023 Nəşriyyat işi və redaktəetmə

Kitabxnaçılıq-informasiya fakültəsi Azərbaycan Respublikasında kitabxanaşünas-biblioqraf, kitabşünas və nəşriyyat redaktoru hazırlayan yeganə ali təhsil ocağıdır. Fakütənin maddi texniki bazası,elmi-pedaqoji potensialı tədrisin dünya standartları səviyyəsində təşkilinə şərait yaratmışdır. Fakütənin müvafiq kafedralarında 3 tədris, 1 elmi təqqiqat labaratoriyası fəaliyyət göstərir.



Kitabxanaçılıq-informasiya fakültəsində tədrisin təşkili, elmi tədqiqat işlərinin araşdırılmasında 70 il ərzində formalaşmış kollektivi mühüm rol oynayır. Burada ölkəmizdə və dünyanın müxtəlif ölkələrində tanınan, nüfuzlu və görkəmli alimlər çalışır.

**Kitabxanaçılıq və informasiya fakütəsinin kafedraları.**

*Kitabxanaşünaslıq kafedrası.* Azərbaycanda kitabxanaşünaslıq elmi əsasən XX əsrin II yarısından başlayaraq inkişaf etməyə başlamıdır. Bu dövrdə universitet səviyyəsində yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf hazırlayan fakültənin kitabxanaşünaslıq elminin tədricən formalaşmasına təsir edirdi. Bu kafedralar arasında ilk dəfə yaranan kitabxanaşünaslıq kafedrası ali kitabxanaşünaslıq təhsilinin formalaşmasına təsir etməklə yanaşı, öz strukturunu da genişləndirdi. Kitabxanaşünaslıq kafedrası 1947-ci ilin oktyabr ayında ik dəfə olaraq universitetin filologiya fakültəsinin kitabxanaşünaslıq şöbəsində tədris işinin təşkili üçün ixtisas kafedrası kimi yaradılmışdır. Məlumdur ki,ali təhsil müəssələrində kadr hazırlığı bilavasitə kaferaların fəaliyyəti ilə bağlıdır.Lakin kitabxanaşünaslıq kafedrası tədrisin təşkilində iştirak edən milli kitabxanaşünaslıq elmi səviyyəsinə yüksəlmişdir. Hazırda kitabxanaşünaslıq adı il fəaliyyət göstərən kafedra təşkil edilərkən kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq kafedrası adlandırıldı. Kitabaxnaşünaslıq və biblioqrafiyaşünaslıq kafedrasının yaranması Azərbaycan kitabxanaşünaslığı və biblioqrafiyaşünaslığı tarixində çox mühüm bir hadisə idi. İlk elmi özək kimi bu kafedra kitabxanaçılıq şöbəsinin yüksək ixtisaslı müəllim kadrlarıilə təmini, ilk elmi mühazirələrin oxunmasının təşkili, fənn proqramlarının tərtibi, dərs vəsaitlərin elmi məqalələrin yazılması və müzakirəsi işində mühüm rol oynadı. Respublikamızda kitabxanaşünaslıq və biblioqrafiya elminə dair ilk sanballı elmi tədqiatların aparılması üçün şərait yarandı. Məhz bu kafedranın fəaliyyəti nəticəsində Azərbaycan kitabxanaşünaslıq elminin bünövrəsi qoyulmuşdur, eyni zamanda respublikada kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın əsaslı şəkildə tədqiqinə başlanılmışdır. Bu fikri söyləməklə XX əsrin I yarısından sonra kitabxanaşünaslıq və biblioqrafiya sahəsində görülən işlərə kölgə salınmır. Burada söhbət fundamental elmi-tədqiqat işlərinin aparılmasından gedir. Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının yaranmasında və fəaliyyətə başlanmasında xalq yazıçısı, böyük ziyalı Süleyman Rəhimovun xüsusi rolu olmuşdur. O dövrdə ixtisas üzrəelmi adı və dərəcəli mütəxəssislər olmadığına görə kafedranın təşkilində ciddi çətinliklər meydana gəlmişdir. Süleyman Rəhimov azbir zaman içərisində universitetin rəhbərliyi ilə birlikdə bu kafedrada işləmək üçün mütəxəssislər seçmiş, onlar universitetə dəvət edilmişdir.

24569

1947-ci ildə kafedranın ilk müdiri vəzifəsinə görkəmli biblioqraf alim Əliheydər Qəhrəmanov təyin edilmişdir. İxtisasca filoloq olan Ə.Qəhrəmanov uzun illər Bakının kütləvi kitabxanalarında kitabxanaçı, kitabxana müdiri işləmiş, Bakı Kitabxanaçılıq Texnikumunda müəllimlik, sonra direktor vəzifələ-



Azərbaycan Milli Kitabxanası

rində çalışmışdır. Bir müddət Respublika Dövlət Kitab Palatasının müdiri işləyən Ə.Qəhrəmanov dissertasiya işi müdafiə etdikdən sonra ömrünün axıranadək kitabxanaşünaslıq və blioqrafiya kafedrasına rəhbərlik etmişdir. Ə.Qəhrəmanov Kitabxanaşünaslıq və blioqrafiyanı dərindən sevən kitabxnaçılıq təhsilinin inkişafına canla-başla xidmət edən, özünə qarşı tələbkar, zəhmətkeş tələbələrə hörmətlə yanaşan sadə, təvazökar bir alim idi.

Kitabxanaşünaslıq kafedrasına dəvət alan ilk müəllimlərdən biri də Hüseyn Tağıyev olmuşdur. O, 1948 ci ildən kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının müəllimi kimi kitabxanaşünaslıq fənnindən mühazirələr oxumuşdur. H.Tağıyev Bakı şəhər kütləvi kitabxnalarında çalışmışdır. Universitetə dəvət alan zaman M.F.Axundov adına Milli Kitabxananın elmi işlər üzrə direktor müavini olmuşdur. O kitabxanaçılıq işinə dair bir sıra vəsaitlər hazırlamışdır.

1952-ci ildə universitetdə kitabxanaçılıq şöbəsinin ilk buraxılışı oldu. Şöbəni bitirən 16 nəfər yüksək ixtisaslı mütəxəssis respublikamızın kitabxanalarına işə göndərildi. Artıq universitet təhsilli gənc mütəxəssislərlə kafedranın potensialını gücləndirmək imkanı yaranmışdı və belə kadrlara böyük ehtiyac duyulmaqdadır. Həm də şöbədə yeni tədris planının tətbiqi ilə əlaqədar dəslər artmışdır. Ancaq bu imkandan bir neçə il sonra istifadə etmək mümkün oldu. 1955- ci ilin yanvar ayındakitabxanaşünaslıq və biblioqrafiya kafedrası şöbəsinin V kurs tələbəsi Abuzər Alı oğlu Xələfovun yüksək təhsil göstəricilərini və ictimai fəaliyyətini nəzərə alaraq müəllim saxlaması haqqında qərar qəbul etdi və rektorluqdan bu qərarın icrasını xahiş etdi. Bu dövrdə Universitetin rektoru, akaddemik Y.Məmmədəliyev kafedranın xahişini nəzərə aldı. Abuzər Xələfov 1955-ci ilin iyun ayında qiyabi şöbədə, sentyabr ayında isə əyani şöbədə mühazirələr oxunmağa başladı. Elə bu təyinat demək olar ki, kitabxanaşünaslıq elminin və ali kitabxnaşünaslıq təhsilinin inkişafına böyük təkan verdi. 1956-cı ildə Kitabxanaçılıq şöbəsinin ilk məzunlarından biri Murad Şəmsizadə kafedraya müəlli dəvət edildi. 1950-ci illərin axırında fakültənin məzunlarından Hacı Balay oğlu Həsənovvə Əşrəf Teymur oğlu Xələfov kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında işləməyə başladılar. Kitabxanaşünaslıq şöbəsini müvəffəqiyyətlə bitirən gənclərin Kitabxanaşünaslıq-biblioqrafiya kafedrasına cəlb edilməsi, kafedranın işinin canlanmasına, tədris keyfiyyətinin yüksəldilməsinə, ixtisas kurslarının artmasına, tələbələr arsında elmi-tədqiqat və tərbiyə işinin yaxşılaşdırılmasına səbəb olmuşdur. Kafedranın elmi tədqiqat işlərində də böyük dəyişiklik baş verdi. Gənc müəllimlər namizədlik dissertasiyası müdafiə etmək üçün elmi mövzular üzərində işləməyə başlamışlar. Həmçinin kafedraya aspirant yer verildi. Biblioqrafiya ixtisası üzrə verilmiş bu yeri kitabxanaşünaslıq şöbəsini 1954-cü ildə bitirmiş Zöhrab Hüseyn oğlu Əliyev tutdu.

Qeyd etdiyimiz kimi, 1959-cu ilə qədər Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına Ə.Qəhrəmanov başçılıq etmişdir. Ondan sonra kafedrada ixtisas müəllimlərindən heç birinin elmi adının olmadığını bəhanə gətirən şərqşünaslıq fakültəsinin rəhbərliyi qeyri-qanuni olaraq fars dili kafedrasınnı dosenti, filologiya elmləri namizədi Həsən Əlizadəni kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına müdir seçilməsinə nail oldu. H.Əlizadə ixtisasçı olmadığına baxmayaraq 1959-cu ildən 1963-cü ilə qədər kafedraya müdirlik etmişdir.



1963-cü ildən bu vəzifəni kitabxanaçılıq fakültəsinin yetirməsi, tarix elmləri namizədi, dosent, fakültənin dekanı Abuzər Alı oğlu Xələfov tutmuşvə 2017-ci ilə qədər müvəfəqiyyətlə çalışmışdır. Hazırda kafedraya pedaqogika üzrə fəlsəfə doktoru, dosent Elçin Yusif oğlu Əhmədov tutmuşdur.

Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası yüksək ixtisaslı müəllim kadrların yetişməsində də mühüm rol oynamışdır.Kafedrada belə bir ənənə formalaşmışdı: fakütəni bitirən gənc kadrlar laborant vəzifəsinə işə götürülür, sonra əyani və qiyabi aspiarnturaya qəbul edilir, yaxud kafedranın dissertantı kimi fəaliyyət göstərirdi. Aspiranturanı bitirmiş şəxslər isə kadfedraya müəllim kimi qəbul edilirdi.

Müxtəlif illərdə T.Quliyev, X.İsmayılov, Z.Baxşəliyev, A.Əliyev aspiranturanı bitirdikdən sonra kafedraya müəllim vəzifəsinə keçmişlər. E.Bədəlov, M.Həsənov, S.Rzayev, A.Abbasova kafedrada laborant işləməklə namizədlik dissertasiyaları müdafiə etmiş və müəllim vəzifəsinə seçilmişlər.

60-cı illərdə Kitabxanaçılıq fakültəsində informatika fənləri tədris etmək üçün informatika ixtisası üzrə aspiranturanı bitirmiş Ə.Rüstəmov fakültəyə müəllim kimi qəbul edilmişdir. S.Mustafayevabaş labornat vəzifəsindən müəllim vəzifəsinə keçirildi. A.Cəfərov aspiranturanı bitirdikdən sonra müəllim vəzifəsinə keçirildi. 70-ci illərdə kafedranın tərkibi respublikamızın kitabxanalarında işləyən zəngin kitabxana işi təcrübəsinə malik olan, istehsalatdan gələn kadrlar hesabına möhkəmləndi. Belə ki, bu illərdə AzərbaycanMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru, pedaqoji elmlər nazmizədi Rasim Əhməd oğlu Kazımov və Naxçıvan Muxtar Respublikasının Dövlət Kitabxanasının direktoru Murtuz Məmmədbağır oğlu Bağırov kafedraya cəlb edildi.

1980-1990–ci illərdə fakültəni müvəffəqiyyətlə bitirən məzunlardan M.Ə.Məmmədov, K.İ.Aslan, E.Y.Əhmədov təyinatla müxtəlif vəzifələrdə çalışdıqdan sonra kafedraya dəvət olunmuş, aspiranturanı bitirib müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edərək dosent vəzifəsi tutmuşlar. Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası 1968-ci ildən Biblioqrafiyaşünaslıq kafedrası yaranana qədər fakültənin tədris prossesini təşkil etmiş, bütün ixtisas fənlərin tədrisini təmin etmək üçün kadrlar hazırlamış, aspirantlar yetişdirmiş, tədris proqramları hazırlamışdır. Kafedra dərsliklərin, dərs vəsaitlərinin, elmi məqalələrin yazılmasında və çap edilməsində də mühüm işlər görmüşdür. Uzun illər fakültənin təkcə ixtisas kafedrası kimi fəaliyyət göstərən bu kafedra kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın bir fənn, bir elm sahəsi kimi təşəkkül tapıb formalaşmasında və inkişafında elmi-metodiki baza rolunu oynamış, respublikamızda bu sahələr üzrə elmi kadrlar hazırlamaq sahəsində yeganə mərkəz olmuşdur.

Ali kitabxanaçılıq təhsili verən fakütənin inkişafı üçün yeni üç yeni müstəqil kafedranın yaranması məhz görkəmli kitabaxnaşünas və biblioqraf alimlərin fəaliyyəti ilə bağlıdır. Respublikamız müstəqillik əldə etdikdən sontra bü-

tün fəaliyyət sferalarında olduğu kimi təhsil sahəsində də islahatların keçirilməsinə başlanıldı. İslahat prossesində iştirak edeən bütün BDU-nun bütün strukturları kimi Kitabxanaşünaslıq kafedrası da yeni təhsil sisteminə keçidlə bağlı üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldi. Kitabxanaçılıq və informasiya fakültəsində sanballı kafedra kimi formalaşan Kitabxanaşünaslıq kafedrası elmi dərəcəsi olan kadr potensialına görə fakültədə ön yerdə gedir. Kafedranın 1963-cü ildən 2017-ci ilədək müdiri olan professor A.A.Xələfov kitabxanaşünas alim kimi, həmçinin milli kitabxanaşünaslığın banisi olaraq Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, "Şöhrət"ordeni kimi yüksək ali rütbələrə layiq görülmüş, BDU-nun ilk "Fəxri professoru" seçilmişdir.

Əməkdar elm xadimi, prof. A.Xələfov üç pilləli təhsil sisteminə (bakalavr, magistratura və doktorantura) keçirilməsindən sonra Kitabaxanaşünaslıq kafedrasının fəaliyyətində təhsil islahatları ilə bağlı ciddi dönüş yaratmağa müvəffəq olmuşdur. Belə ki artıq kafedranın tədris planı yeni təhsil sisteminə uyğun quruldu. Bakalavr, magistr hazırlığının başlanğıc dövründə kitabxanaşünaslıq kafedrasının iş prinsipləri fakültənin və digər kafedralar üçün önəmli xarakter daşıyır.

Kitabxanaşünaslıq kafedrasının nəzdində "Kitabxana işnin təşkili və idarə olunması" adlı tədris laboratoriyası fəaliyyət göstərir. Laboratoriya Kitabxanaşünaslıq kafedrasının müəllimlərini və digər mütəxəssis kitabxanaçı kadrların müxtəlif növ materiallarını, dərslikləri, dərs vəsaitləri, proqram və digər tədris ədəbiyyatını, ixtisasa dair dövri nəşrləri toplayıb tələbələrin və işçi heyətin tələbatını ödəmək funksiyasını yerinə yetirir. Tədris laboratoriyasının müdiri Z.Camalova və laborant S.Əliyeva tədris olunan fənlərin tədris vəsaitləri ilə təmin olunmasını təşkil edirlər.

Kitabxanaşünaslıq kafedrasının elmi-tədiqat işləri üç istiqamətdə: dissertasiya işi mövzularını işləyib müdafiə etmək, dərsliklər dərs vəsaitləri, metodik göstərişləri işləib hazır etmək, elmi məqalələr yazıb nəşr etdirmək istiqamətindəaparılır. Bundan başqa elmi müzakirələrin keçirilməsi, elmi metodiki işlərin aparılması, elmi seminarların təşkili kafedranın elmi tədqiqat işlərinn əsas tərkib hissəsi olmuşdur. Kitabxanaşünaslıq üzrə ilk tədqiqatlar kitabxanaşünaslığın tarixi mövzusuna həsr edilmişdir. Son zamanlar müstəqil fənlər kimi formalaşan əsas tərkib hissələrindən biri olmaqla kitabxanaşünaslığın hərtərəfli öyrənilməsinə ciddi köməklik göstərən bu fənn eyni zamanda cəmiyyətin inkişafının müxtəlif mərhələlərində kitabxana işinin inkişaf qanunauyğunluqlarını meydana çıxarır, kitabxanaların sosial rolunu, elm, maarif, mədəniyyət və təsərrüfatın inkişafındakı xidməti ümumiləşdirir, əhaliyə kitabxana xidmətinin vəziyyətini öyrədir, həmçinin, kitabxanaşünaslıq fikrini tədqiq edir. Kitabxana tarixinin öyrənilməsi kitabxanaşünaslıq kafedrasında aparılan elmi tədqiqat işlərinin çərçivəsində dayanır. Bu iki istiqamətdə özünü təsdiq edir. İlk növbədə bütün fənlərin elm sahələrinin tədqiqi onun tarixindən başlanır. Kitabxana tarixinin öyrənilməsi də bu bir baxımdan kittabxananın növləri tədqiqinə geniş



imkanlar yaradılır. Digər bir tərəfdən kitabxanaşünaslıq kafedrası prof.A.A.Xələfov hələ 1961-ci ildə isə "Azərbaycanda kitabxana işinin tarixi" (1920-1932-ci illər) mövzusunda namizədlik dissertasiyası 1975-ci ildə isə "Azərbaycanda kitabxana işinin tarixi (1933-1958 ci illər)" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. Məhz bu elmi tədqiqatların nəticəsi kimi kitabxanaşünaslıq kaedrasının elmi potensialı güclənmiş və bu sahədə elmi tədqiqat işlərin aparılmasına start verilmişdir. Kafedra formalaşdıqdan sonra kafedranın əməkdaşlarından T.F.Quliyev 1968-ci ildə "Azərbaycan həmkarlar ittifaqı kitabxanaların tarixi (1920-1941)", R.Ə.Kazımov 1972 ci ildə "Azərbaycan bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyası (1920-1965)", 1973-cü ildə S.M.Rzayev "Ömər Faiq Nemanzadənin ədəbi-publisistik fəaliyyəti", Ə.M.Rüstəmov "Azərbaycan neft sənayesi işçilərinin biblioqrafik informasiya təminatı sisteminin mexanikləşdirmə və avtomatlaşdırma vasitələri əsasında işlənməsi və təhlili", E.Bədəlov "Sosializmin təkmilləşməsi dövründə Azərbaycan SSRİ-də kənd əhalisinə kitaxana xidmətinin təşkili (1959-1970)", X.İsmayılov 1984-cü ildə "Azərbaycanda partiya kitabxanaları sovet hakimiyyəti illərində", 1989-cu ildə Z.İ.Baxşəliyev "Azərbaycan neft sənayesi elmi texniki kitabxanaları", 1990-cı ildə A.N.Abbasova "M.F.Axundov adına Azərbaycan Milli kitabxanasının inkişafı və təkmilləşdirilməsi (1959-1985)", A.M.Əliyev "Naxçıvan MSSR-də kitabxana işi (1920-1985)" mövzusunda müvəffəqiyyətlə namizədlik dissertasiyaları müdafiə etmişlər.

Kitabxanaşünaslıq kafedrasının elmi tədqiqat sahəsində işlərin təşkili,namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi müstəqillik dövründə milli ideoloji istiqamət olaraq davam etdirmişdir. Kitabxanaşünaslıq kafedrası müstəqillik illərində Azərbaycanda əhaliyə kitabxana xidmətinin mühüm istiqamətlərinin əsas problemlərini ümumi tədqiqatalara cəlb edərək kafedranın elmi istiqamətini müəyyən etmişdir. Kafedranın müasir dövrədək fəaliyyətini təhlil edərkən onu iki mərhələyə bölmək olar:Birinci mərhələ potsovet məkanı mərhələsi,ikinci mərhələ isə müstəqillik dövrünə təsadüf edir.

Birinci mərhələdə həm potsovet məkanı dövründə kitabxanaşünaslıq kafedrası öz fəaliyyətini zəmanənin tələbinə uyğun qurmuş, elmi tədqiqat işinin məzmununda partiyalılıq prinsipini rəhbər tutaraq inkişaf mərhələləri keçmişdir. Kitabxanaşünaslıq kafedrasında aparılan elmi tədqiqat işləri, dissertasiya işlərinin bir hissəsi məhz həmin dövrə düşmüşdür. Əvvəldə qeyd etdiyimiz kimi müstəqllik illərində kafedranın fəaliyyəti daim inkişaf etmiş elmi tədiqat işlərinin dissertasiyaların tədqiqində, fənlərin tədrisinin təkmilləşdirilməsində milli ideoloji istiqamət yer almışdır. Kafedrada fənlərin tədrisi ilə başlı respublikada gedən təhsil isalahatları və onların xarakterik cəhətləri müəyyənləşdirilmiş demək olar ki kafedranın fəaliyyəti tamamilə təhsil islahatlarının tələblərinə uyğun qurulur.

Kafedraya yeni tədris pilləsinə keçidlə bağlı bakalavr və magistr pilləsində ixtisaslaşmanın müasir tələblərinə cavab verən dərsliklər, dərs vəsaitləri, proqramlar nəşr edilmişdir. Tədricən kafedrada bakalavr hazırlığı üzrə "Kitab-

xanaşünaslığa giriş", "Azərbaycanda kitabxana işinin tarixi", "Kitabxanaçılıq işinin əsasları", "Kitabxana işinin təşkili və idarə olunması", "Kitabxanaların elmi-metodiki təminatı", "Kitabxanaçılıq informatikası", "Kitabxana-informasiya fəaliyyətinin texniki vasitələri", "Dünya kitabxanalarının tarixi", "Oxuculara xidmət", "Kitabxana işinin iqtisadiyyatı", "Rəqəmli kitabxana sistemləri", "Kitabxanalarda fandrayzinq fəaliyyəti", "Kitabxanaların kompüterləşdirilməsinin əsasları" fənləri, magistratura pilləsində "Kitabxanaşünaslığın tarixi, nəzəriyyəsi və metodologiyası", "Kitabxanaşünaslığın müasir problemləri", "Dünya milli kitabxanaları", "Kitabxana marketinqi", "Bibliometriya","Elektron sənədlərlə iş" və s. kimi fənlər müvəffəqiyyətlə tədris olunur.

Kitabxanaşünaslıq kafedrasında son yerinə yetirilən kitabxana işinin müxtəlif problemlərinə dair namizədlik və doktorluq dissertasiyalarının müdafiələri də əlamətdarlığı ilə səciyyələnir. Bu disserasiyaların tədqiqində elmi rəhbər Əməkdar elm xadimi, professor A.A.Xələfovun elmi potensialı və şəxsi nüfuzu əhhəmiyyətli rol oynamışdır. Bunun bariz nümunəsi olaraq 2000 ci il dekabr ayının 6 da kitabxanaşünaslıq kafedrasının müəllimi E.Y.Əhmədov və M.Ə.Məmmədov AAK tərəfindən yaradılmış birdəfəlik İxtisaslaşdırılmış Müdafiə Şurasının iclasında müvəffəqiyyətlə nazmizədlik dissertasiyarı müdafiə etmişlər. E.Y.Əhmədov "Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkili (1901-1995)", M.Ə.Məmmədov isə "Azərbaycan Respublikası kitabxanalarında KAA sistemi (1918-1990)" ilə bağlı tədqiqatları yekunlaşdırmış və müdafiə edərək pedaqoji elmlər nazmizədi elmi dərəcələri almışlar. Bundan bir il sonra kafedranın dissertantı Ə.Ş.Nəcəfov Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində İxtisaslaşdırılmış Müdafiə Şurasının iclasında "Azərbaycan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixi (1923-1988)" mövzusunda, daha sonra kafedranın dissertantı Ş.İ.İslamova "Azərbaycan Elmlər Akademiyasının kitabxana şəbəkəsinin inkişafı (1923-1990)" mövzusunda müdafiə edərək tarix elmləri namizədi, Kitabxanaşünaslıq kafedrasının baş müəllimi K.İ.Aslan "Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışlar. Qeyd etmək lazımdır ki, adlarını çəkdiyimiz müdafiə edən aspirant və dissertantlara Əməkdar elm xadimi, professor A.A.Xələfov elmi rəhbərlik etmişdir.

Müstəqillik illərində Kitabxanaşünaslıq kafedrasında aparılan ən mühüm elmi nailiyyətlərdən biridə uzun fasilədən sonra doktorluq dissertasiyasının müdafiəsi olmuşdur. Belə ki, kafedranın dosenti X.İ.İsmayılov 2004-cü ildə "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000 ci illər) (tarixi,müasir vəziyyəti,perspektivləri)" mövzusunda (elmi rəhbər: prof. A.A.Xələfov) müvəffəqiyyətlə doktorluq dissertasiyalarını müdafiə etmiş, tarix elmləri doktoru elmi dərəcəsi almışdır. Beləliklə kafedranın elmi potensialı yüksəlmiş, alimlər sırasına bir professorda əlavə edilmişdir.

2010-2017-ci illərdə Kitabxanaşünaslıq kafedrasının dosent əvəzi N.İsmayılova, Milli Kitabxananın direktoru professor K.Tahirov, Kitabxanaşünaslıq kafedrasının müəllimi E.Məmmədov, Milli kitabxananın şöbə müdiri A.Abdullayeva və başqaları Əməkdar elm xadimi BDU-nun fəxri professoru A.Xələfovun rəhbərliyi altında müvəffəqiyyətlə dissertasiya işlərini müdafiə etmişlər.



1999-cu ildə A.Xələfovun rəhbərliyi ilə Kitabxanaşünaslıq kafedrasının nəzdində "Kitabxana işinin kompüterləşdirilməsi" adlı elmi-tədqiqat laboratoriyası açılmışdır. Bu gün də laboratoriya prof. A.A.Xələfovun rəhbərliyi ilə müvəffəqiyyətlə fəaliyyət göstərir və Azərbaycanda kitabxana işinin kompüterləşdirilməsi problemini elmi və nəzəri cəhətdən tədqiq edən yeganə elmi müəssisə-tədqiqat laboratoriyasıdır. Bu laboratoriyada prof. A.A.Xələfovun rəhbərliyi altında 3 nəfər elmi işçi çalışır. Kafedranın dosent əvəzi N.İsmayılova, f.d. E.Məmmədov, elmi işçi S.Məmmədova elmi tədqiqat labaratoriyasında BDU-nn Elmi Kitabxanasının elektron dərsliklər fondunun yaradılması sahəsində işguzarlıqla çalışırlar və bu istiqamətdə xeyli iş görülmüşdür.

*Biblioqrafiyaşünaslıq kafedrası.* Kitabxanaçılıq fakültəsinin Bakı Dövlət Universitetində yaranması kitabxanaşünaslıq və biblioqrafiya elminin və kitabxanaşünaslıq məktəbinin formalaşması tarixi hadisə olaraq onun gələcəktaleyini demək olar ki, qəti şəkildə həll etdi. Fakültədə ixtisas fənlərinin tədris planında xüsusi çəkisinin artması və sahə üzrə elmi-tədqiqat işlərinin aparılması zərurəti dekan A.Xələfovun təşəbbüsü və gərgin əməyi və yenicə formalaşmağa başlayan kollektivin dəstəyi nəticəsində 1968-ci ildə biblioqrafiya kafedrasının yaradılması ilə nəticələndi. Kafedranın ilk əməkdaşları Zöhrab Əliyev, Əşrəf Xələfov, Bayram Allahverdiyev, Hacı Həsənov və Fərman Bayramov olmuşdur. Kafedranın ilk müdiri milli biblioqrafiyanın təzkirə janrının tarixi ənənələrinin ilk tədqiqatçılarından biri olan, o zamanlar Dövlət Kitabxanasında elmi işlər üzrə direktor müavini işləyən tanınmış ziyalı Əşrəf Teymur oğlu Xələfov təyin edildi.

1956-cı ildə kitabxanaşünaslıq və biblioqrafiya ixtisası üzrə ilk dəfə əyani aspiranturaya qəbul olunan Zöhrab Əliyevin elmi rəhbəri də Əliheydər Qəhrəmanov olmuş, onun vəfatından sonra (1959) Sankt- Peterburq Mədəniyyət və İncəsənət İnstitutunun alimi M.D.Eyxonqoltsun elmi məsləhətçiliyi ilə 1963-cü ildə "Azərbaycanda biblioqrafiya işinin inkişafı (1920-1958-ci illər)" adlı namizədlik dissertasiyasını uğurla müdafiə etməklə ilk dəfə olaraq Azərbaycan biblioqrafiyasının meydana gəlməsi və inkişafı tarixini elmi əsaslarla tədqiq edən mütəxəssislərdən birincisi olmuşdur.

O, bir müddət M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında və Mədəniyyət Nazirliyində çalışmış, 1960-cı ildən Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında müəllim, 1970-1980-ci illərdə Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, 1984-cü ildən 2007-ci ilə qədər Biblioqrafiyaşünaslıq kafedrasının müdiri vəzifələrini təşkilatçılıq bacarığı və idarəçilik səriştəsi ilə, yüksək peşəkarlıq və məsuliyyətlə icra etmişdir.

Z.H.Əliyev 55 illik elmi-pedaqoji fəaliyyəti ərzində Kitabxanaçılıq-informasiya fakültəsində biblioqrafiyaşünaslıq fənləri üzrə tədris prosesinin yük-

sək səviyyədə təşkili və həyata keçirilməsinə rəhbərlik etmiş, bir sıra dünya ölkələrində qabaqcıl təcrübəni öyrənmiş, biblioqrafiyaşünaslıq elmi məktəbinin əsas elementlərini yaratmağa nail olmuş görkəmli ziyalıdır.

Yüksək ixtisaslı biblioqrafiyaşünas kadrların yetişməsi istiqamətində əsaslı işlər görməklə yanaşı, bu sahədə elmi tədqiqat işinə də böyük əhəmiyyət vermişdir. Onun geniş elmi tədqiqatları Azərbaycanda biblioqrafiyanın tarixinin formalaşması qanunauyğunluqları, biblioqrafiyanın nəzəri əsaslarının öyrənilməsi, biblioqrafik fəaliyyətin meydana gəlməsi və inkişafı, onun çoxcəhətli quruluşu, kitabxanalarda biblioqrafiyalaşdırma və biblioqrafik xidmət prosesinin təşkili metodikası kimi aktual məsələlərə həsr edilmiş, dərslik və dərs vəsaiti, elmi məqalələrdə öz əksini tapmışdır.

Böyük zəhmət nəticəsində müxtəlif illərdə "Azərbaycanda biblioqrafiya işinin vəziyyəti və inkişafı tarixindən (1945-1956)", "Kitabxanada məlumat-biblioqrafiya aparatının təşkili", "Tövsiyə biblioqrafik vəsaitlərin tərtibi metodikası", "Azərbaycan biblioqrafiyasının tarixi", "Ümumi biblioqrafiyaşünaslıq" adlı mühüm əsərlər ərsəyə gətirmişdir. Bu əsərlər biblioqrafiyaşünaslıq üzrə yaranmış istənilən məsələnin həlli üçün bugün də mütəxəssislərin dəfələrlə müraciət etdiyi, sahə üzrə elmi tədqiqatlarda geniş istifadə edilən dəyərli elmi məxəzlərdir.

Professor Z.Əliyevin elmi rəhbərliyi ilə bir neçə biblioqraf alimlər yetişmiş, müvəffəqiyyətlə namizədlik dissertasiyalarımüdafiə etmiş, bir çox tədqiqatçıların opponenti olmuşdur. Eyni zamanda respublikamızda müxtəlif elm, mədəniyyət, təhsil müəssisələrində, digər idarə və təşkilatlarda, regional informasiya mərkəzlərində çalışan yüksək istisaslı, səriştəli, peşəkar kitabxana-informasiya mütəxəssisləri, biblioqrafların hər biri bu gözəl insanın, dəyərli alimin yetirmələridir.

Biblioqrafiyaşünaslıq kafedrasının təşkilində Xələfov ƏşrəfTeymur oğlunun xidmətlərini xüsusi qeyd etmək lazımdır. O, 1959-cu ildən Bakı Dövlət Universitetində müəllim kimi çalışmış, 1968-ci ildən etibarən biblioqrafiya kafedrasına 10 il ərzində rəhbərlik etmişdir. 1966-cı ildə "V-VIII sinif şagirdlərinin sinifdənkənar mütaliəsinə rəhbərlik (Respublika uşaq və məktəb kitabxanalarının materialları əsasında)" mövzusunda namizədlik dissertasiyasımüdafiə edərək, pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. Müxtəlif illərdə çap etdirdiyi "Kütləvi kitabxanalarda gənclərin mütaliəsinə rəhbərlik" (1957), "Mütaliə mədəniyyət haqqında" (1965) kitabların, "Bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası" (1986) adlı dərs vəsaitinin, respublikanın mətbuat orqanlarında dərc olunmuş "Azərbaycan ədəbi biblioqrafiyası 70 ildə", "Bədii ədəbiyyatın mövzu biblioqrafiyası", "Ədəbi biblioqrafiyanın effektivliyi", "Ədəbi biblioqrafik mənbələr mütəxəssislərə biblioqrafik xidmətin əsas vasitəsidir", "XX əsr təzkirəçiləri haqqında" və s. bu kimi onlarca elmi məqalələrin müəllifidir. SSRİ Mədəniyyət Nazirliyinin, Təhsil Nazirliyinin və Həmkarlar İttifaqı orqanlarının fəxri fərmanları ilə təltif edilmişdir. Ə.Xələfov 2008-ci ildə vəfat etmişdir.



Biblioqrafiya kafedrasının inkişafında xidmətləri olan alimlərdən biri də Bayramov Fərman Aslan oğludur. O 1960-cı ildə ADU-nun kitabxanaçılıq fakültəsini bitirmiş, 1960-1969-cu illər də M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasındabaş metodist və şöbə müdiri vəzifələrində çalışmışdır. 1970-ci ildən ADU-nun kitabxanaçılıq fakültəsində çalışmışdır. "Cəlil Məmmədquluzadənin ədəbi irsinin nəşri tarixi və yazıçı haqqında biblioqrafiya" adlı namizədlik dissertasiyası müdafiə edərəkelmi dərəcə almışdır. "Azərbaycan iqtisadiyyatının biblioqrafiyası", "Milli biblioqrafiyamızdan biri", "XX əsr Azərbaycan alimləri və biblioqrafiya", "H.Z. Şirvani yaradıcılığında mütaliə və biblioqrafi ya məsələləri" adlı məqalələrin, "Cəlil Məmmədquluzadə: 1866–1966", "Nəriman Nərimanov: 1870–1970" biblioqrafik vəsaitin, bir sıra xronikanın müəllifi olmuşdur. "Əmək veteranı" medalı ilə təltif edilmişdir.

Qısa müddət ərzində kafedra təşkil edildi və onun fəaliyyəti nəticəsində tədris olunan fənlərin və aparılan elmi araşdırmaların keyfiyyətininartması müşahidə olunmağa başladı. Ötən əsrin 70-80-ci illərini Biblioqrafiya kafedrasının tarixində mübaliğəsiz olaraqinkişaf dövrü kimi qiymətləndirmək olar. Bu dövrdə kafedraya yeni işçilərin qəbul edilməsi, aspiranturaya perspektivli gənclərin seçilib götürülməsi milli biblioqrafiyanın tarixi ənənələrinin tədqiqat obyekti kimi formalaşması ilə nəticələndi. Bəhs edilən dövrdə kafedranın tədris və elmi mərkəz kimi formalaşmasında professional biblioqrafların ikinci nəslinin nümayəndələri olan Bayram Allahverdiyev, Fərman Bayramov, Aydın Xəlilov, Raifə Vəzirova və Qəmzə Hacıyeva, üçüncü nəslə mənsub olan Rasim Süleymanov, Çimnaz Rüstəmova, Nadir İsmayılov, Sima İsmayılova, Əliyusif Məmmədov, Xuraman Ağayeva və Solmaz Sadıqovanın xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Biblioqrafiyaşünaslıq kafedrasında "Kitabxanalarda biblioqrafiya işinin təşkili və metodikası fənninin tədrisi sahəsində əldə edilən nailiyyətlərdən bəhs edərkən Vəzirova Raifə Əsəd qızının fəaliyyətini qeyd etmək lazımdır. O, Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsində 1974-cü ildən 2010-cu ilədək laborant, assistent, baş muəllim vəzifələrində çalışmışdır. 10-dan çox məqalənin, 1 kitabın müəllifidir.

Kafedrada "Xarici biblioqrafiya", "Ölkəşünaslıq biblioqrafiyası" fənninin müasir tələblər səviyyəsində tədrisinin təşkilində Hacıyeva Qəmzə Söhbət qızının fəaliyyəti səmərəli olmuşdur. O, 1966–1970-ci illərdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində təhsil almışdır. Abşeron rayon Partiya Komitəsi Siyasi Maarif Kabinəsində kitabxanaçı (1970–1971), BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasında laborant, baş laborant və müəllim (1971–1979) işləmişdir. 1979-cu ildən baş müəllimdir. 2 kitabın, 20-dən çox məqalənin müəllifidir. Kitabxanada ölkəşünaslıq (diyarşunaslıq) üzrə biblioqrafik fəaliyyət (nəzəri-tarixi, təşkilati-metodiki məsələlər), xarici biblioqrafiya kitablarının, Türkiyədə milli biblioqrafiya, müasir dövrdə ölkəşünaslıq biblioqrafiyasının təşkili və s. məqalələrin müəllifidir.

80-ci illərin sonlarında fakültənin yetirməsi, Biblioqrafiya kafedrasının əyani aspiranturasına daxil olan İsmayılov Nadir İslam oğlu 1987-ci ildə Moskva Dövlət Mədəniyyət İnstitutunun ixtisaslaşdırılmış müdafiə şurasında professor Z.Əliyevin rəhbərliyi ilə "Təbabət üzrə regional kitabxana-biblioqrafiya ehtiyatlarının inkişafı, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları (Azərbaycan materialları əsasında)" mövzusunda dissertasiya işini müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Onun I-ci rəsmi opponenti professor A.Xələfov olmuşdur. Nadir İsmayılov 1992-ci ildən dosentdir. Müxtəlif fasilələrlə Kitabxanaçılıq-informasiya fakültəsində dekan müavini işləmişdir (1994–2003). 2007-ci ildən Biblioqrafiyaşünaslıq kafedrasının müdir əvəzi olmuş, 2012-ci ildə kafedra müdiri vəzifəsinə təyin olunmuşdur. Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" Fəxri fərmanı ilə təltif olunmuşdur. "Kitabxanalarda biblioqrafiya işin təşkili və metodikası" (2018, həmmüəllif), "Azərbaycanın biblioqrafik vəsaitlər sistemi", "Xarıcı biblioqrafiya", "Sənədşünaslıq", "Biblioqrafiyaşünaslığın tədrisi metodikası"və s. fənləri tədris edir. 2 monoqrafiya, 10 kitab, 150-ə yaxın məqalənin müəllifidir. 2013-cü ildə onun Almaniyada rus dilində "Azərbaycanın kitabxana-biblioqrafiya və informasiya resursları: inkişaf mərhələləri və təkmilləşdirilməsi yolları" monoqrafiyası nəşr edilmişdir. Bir sıra respublika və beynəlxalq konfranslarda iştirak etmişdir. 4 nəfər doktorant və dissertantın elmi məsləhətçisi olmuşdur. 2014-cü ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir. Onun əsərlərinə misal olaraq "Azərbaycan biblioqrafiyasının biblioqrafiyası", "Biblioqrafik tərtibatın metodikası" (R.Vəzirova ilə birlikdə); "Elmi-təbii ədəbiyyatın biblioqrafiyası", "Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət" (nəzəri-tarixi, təşkilati -metodiki məsələləri) (Q.Hacıyeva ilə birlikdə); "Kitabxanaçılıq-informasiya fakültəsi-60: Biblioqrafik məlumat kitabı" (S.Sadıqova ilə birlikdə); "Xəzər dənizi və neft (1954–2002): Biblioqrafik göstərici", "Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal: biblioqrafik göstərici (1997–2008-ci illər)", "Heydər Əliyev və Azərbaycan elmi: Biblioqrafik göstərici", "M.F.Axundov: biblioqrafik göstərici", "Azərbaycan Xalq Cumhuriyyəti" adlı kitabların, "Azərbaycan Respublikası regionlarının kitabxana-informasiya resurslarının bəzi məsələləri" (Dağlıq Şirvan iqtisadi rayonunun nümunəsində) (İ.Bayramova ilə birlikdə); "Görkəmli Azərbaycan aliminin həyat salnaməsi" (A.Xələfovla birlikdə); "Görkəmli elm və təhsil təşkilatçısı" (Prof.A.A.Xələfovun 80 illik yubileyi münasibətilə), "Soraq-biblioqrafiya xidmətinin mahiyyəti və mənbəşünaslığı", "Azərbaycan kitabxana işinin inkişafında yeni mərhələ" (ADA Universitetinin kitabxanasının keçirdiyi beynəlxalq konfransın icmalı), "Библиотечно-библиографические и информационные ресурсы Азербайджана: этапы развития, состояние и пути совершенствования" və s.

Biblioqrafiyaşünaslıq kafedrasında sahəvi biblioqrafiyanın tarixi məsələlərinin tədqiqində Ağayeva Xuraman Telman qızının fəaliyyəti diqqəti cəlb



edir. O, 1978-1983-cü illərdə Kitabxanaçılıq-informasiya fakültəsinin əyani şöbəsində təhsil almış və fakültəni fərqlənmə diplomu ilə bitirmişdir.

Ağayeva Xuraman Telman qızı 1985-1987-ci illərdə Bakı şəhər Xətai rayon MKS-in M.Ə.Sabiradına kitabxana-klubunda kitabxanaçı işləmişdir. 1987-ci ilin noyabr ayından Kitabxanaçılıq-informasiya fakültəsində əvvəlcə laborant, 1992-ci ildən Biblioqrafiyaşünaslıq kafedrasının "Biblioqrafik informasiya-axtarış sistemləri" tədris laboratoriyasının müdiri vəzifələrində çalışmışdır. 2002-2007-ci illərdə Biblioqrafiyaşünaslıq kafedrasının dissertantı olmuşdur. O, professor Z.Əliyevin elmi rəhbərliyi ilə 2009-cu ilin may ayında "Azərbaycanda pedaqoji elmlərin biblioqrafik informasiya təminatı: tarixi, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları" adlı dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək 2010-cu ildə pedaqogika üzrə fəlsəfə doktoru elmi adını almışdır.

Dissertasiya işində müəllif Azərbaycanda pedaqoji biblioqrafiyanın yaranmasını tarixi ardıcıllıqla araşdırır, sahə üzrə biblioqrafik informasiyanın yaranması, inkişafı və formalaşması mərhələlərini, pedaqogika üzrə biblioqrafik informasiya təminatı sistemini, mövcud olan ümumi xarakterli cari və retrospektiv elmi-köməkçi, tövsiyə, şəxsi biblioqrafik resursu üzə çıxardır, mütəxəssislərin informasiya təminatında onların həm ənənəvi, həm də elektron formalarının rolunu və səmərəliliyini müəyyən edir.

Müəllif pedaqoji elmlərin biblioqrafik informasiya təminatınınmüasir vəziyyətini elmi dövriyəyə daxil edir, çatışmazlıqları aşkara çıxardır, alınan elmi nəticələrin tətbiqi obyektini göstərir. Onun tədqiqatları "Pedaqogika üzrə ədəbiyyatın biblioqrafiyası" (2018) adlı dərs vəsaitində öz əksini tapır.

Xuraman Ağayeva 2011-ci ildən Biblioqrafiayaşünaslıq kafedrasının əvvəlcəmüəllimi, sonra baş müəllimi, 2016-ci ildən dosent əvəzi, 2019-cu ildən dosenti vəzifələrində çalışır. Fakültənin bakalavr pilləsində "Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası", "Sənədşünaslıq", "Xarici biblioqrafiya", magistratura pilləsində isə "Beynəlxalq biblioqrafik əməkdaşlıq", "Biblioqrafik vəsaitlərin tərtibi metodikası", "Soraq-biblioqrafiya xidmətinin idarə olunması" fənlərini tədris edir.

"Pedaqogika üzrə ədəbiyyatın biblioqrafiyası: Dərs vəsaiti" (2018), "Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası: Dərs vəsaiti"(2018), "Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası: Metodiki vəsait"(2018), 6 proqram və 80-ə qədər respublikamızda və xarici ölkələrdə nəşr olunmuş elmi məqalə və tezisin müəllifi olan Xuraman Ağayeva bir çox respublika və beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir.

Xuraman Ağayeva fakültənin və universitetin ictimai həyatında yaxından iştirak edir. 2012-ci ildən Kitabxanaçılıq-informasiya fakültəsinin Elmi Şurasının Elmi katibikimi səmərəli fəaliyyət göstərir. O, dəfələrlə BDU-nun Rektorluğunun fəxri fərmanına layiq görülmüşdür.

Hazırda Xuraman Ağayeva "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında informasiya menecmentinin xüsusiyyətləri" adlı elmi-tədqiqat işi üzərində çalışır.

Kafedranın məhsuldar əməkdaşlarından olan Sadıqova Solmaz Azay qızı praktiki biblioqraf və biblioqrafiyaşünas olmaqla tarix üzrə fəlsəfə doktoru (2011), dosentir. 1980-1985-ci illərdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində təhsil almışdır. 1994-cü ildən BDU-nun Bibliorafiyaşünaslıq kafedrasında baş laborant işləmiş, doktorant (qiyabi) olmuş (1995-1999), sonra müəllim (2004-2008) işləmiş, 2008-ci ildən baş müəllim, 2015-ci ildən dosent əvəzi, 2017-ci ildən ona Biblioqrafiyaşünaslıq kafedrası üzrə dosent elmi adı verilmişdir.

2006–2009-cu illərdə Kitabxanaçılıq-informasiya fakültəsində təlim-tərbiyə üzrə dekan müavini işləmişdir. O, 2011-ci ildə professor Z.Əliyevin elmi rəhbərliyi ilə "Azərbaycan mətbuatının (kitab və dövri nəşrlər) biblioqrafik repertuarı: tarixi, müasir vəziyyəti və perspektivləri (1959-2000-ci illər)" mövzusunda dissertasiya işini müdafiə etmişdir. Ona Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının FD № 07685 saylı 3 oktyabr 2012-ci il tarixli (protokol № 28-k) qərarı ilə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi diplomu verilmişdir.

23.01.2017-ci il tarixdən Kitabxanaçılıq-informasiya fakültəsi, Biblioqrafiyaşünaslıq kafedrasının 335601- "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisası üzrə" dövlət büdcəsi hesabına elmlər doktoru proqramı ilə doktoranturaya qəbul olunmuşdur. "İnformasiya cəmiyyəti şəraitində Azərbaycan kitabxanalarında biblioqrafik fəaliyyətin innovativ formaları və elmi metodları (Azərbaycan Respublikası elmi və sahəvi kitabxanalarının materialları əsasında)" mövzusunda doktorluq dissertasiyası üzərində uğurla çalışır.

Magistratura pilləsində "Milli ideologiyaya dair ədəbiyyatın biblioqrafiyası" və "Humanitar ədəbiyyatın biblioqrafiyası", bakalavriatura pilləsində "Biblioqrafiyaşünaslıq", "Sosial-siyasi informasiya resursları" (Azərbaycan və ingilis bölməsində)", Xarici biblioqrafiya", Azərbaycan biblioqrafiyasının tarixi", "Kitabxanalarda biblioqrafiya işinin təşkili və metodikası" və s. fənləri tədris edir.

Dosent Solmaz Sadıqovanın 2018-ci ildə çapdan çıxmış monoqrafiyası "Azərbaycan milli biblioqrafiyası qlobal informasiya məkanında" adlanır. Qlobal informasiya məkanında Azərbaycan milli biblioqrafiyasının yeri, rolu və əhəmiyyətindən bəhs edən monoqrafiya Bakı Dövlət Universitetinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuşdur.

S.Sadıqovanın 2018-ci ildə elmi məqaləsinin biri (İnitial resources on socio-political information) xaricdə "European Journal of Humatities and Social Sciences" jurnalında Viennada (ingilis dilində) çap olunmuşdur.

Bakı Dövlət Universitetinin 90 illiyi münasibətilə «Səmərəli elmi-pedaqoji fəaliyyətinə görə» Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin «Fəxri Fərman»ı ilə təltif olunmuşdur. Azərbaycan Respublikası Təhsil Nazirliyininfəxri fərmanı ilə təltif edilmişdir.



S.A. Sadıqova 150- dən çox əsərin - 1 qrant qalibi, 27 kitab, 9 fənn proqramı, 22 tezisin və 90 məqalənin (o cümlədən 6 məqalə xaricdə çap olunub), 2 dərs vəsaitinin müəllifidir, 6 məqalə, 1 proqram və 1 dərs vəsaiti ingilis dilində çap olunmuşdur. Yeri gəlmişkən, böyük ehtiramla qeyd etmək lazımdır ki, professor A. Xələfovun elmi metodikası əsasında hazırlanan Ümummilli Liderimiz Heydər Əliyevə həsr edilmiş Dünyanın görkəmli siyasi xadimləri seriyası ilə3 dildə çap olunmuş biblioqrafik məlumat kitabının (2003) tərtib edilməsində Solmaz Sadıqovanın da iştirak etdiyini qeyd etmək lazımdır.Bu seriyanın ideya müəllifi professor A. Xələfovdur. Bu seriya ilə biblioqrafik məlumat kitablarının nəşri son illər ölkəmizdə artıq ənənə halını almışdır.

Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyaşünaslıq üzrə mütəxəssislərin informasiya təminatında biblioqrafik resursun inkişaf tarixini tədqiq edən alimlərdən biri də İsmayılova Sima Paşa qızıdır. Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Sima Paşa qızı İsmayılova 1978-ci ildə Kitabxanaçılıq fakültəsini bitirmişdir. Kitabxananın "Ədəbiyyatın elmi sistemləşdirilməsi" şöbəsində böyük kitabxanaçı vəzifəsində çalışmışdır (1978-1981). S.İsmayılova 1981-ci ildən Kitabxanaçılıq-informasiya fakültəsinin Biblioqrafiyaşünaslıq kafedrasında çalışır. O, 1988-1992-ci illərdə Biblioqrafiyaşünaslıq kafedrasının dissertantı olmuşdur. S.P.İsmayılova 1992-ci ildə həmin kafedraya müəllim, 2006-cı ildə isə baş müəllim vəzifəsinə seçilmişdir. O, 2012-ci ildə professor Z.Əliyevin elmi rəhbərliyi ilə "Azərbaycanda ədəbiyyatşünaslıq sahəsində mütəxəssislərin biblioqrafik informasiya təminatı sisteminin vəziyyəti və təkmilləşdirilməsi yolları (1965 - 2000-ci illər)" mövzusunda dissertasiya müdafiə etmişdir.

S.P.İsmayılova 100-dən artıq elmi əsərin, o cümlədən 1 monoqrafiya, ("Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası:1965-2000-ci illlər"); 2 dərs vəsaiti, ("Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə sənəd kütləsi biblioqrafiyalaşdırma obyekti kimi", "Uşaq və gənclər üçün ədəbiyyatın bibilioqrafiyası"); 2 metodik göstəriş ("Uşaq və gənclər üçün ədəbiyyatın bibilioqrafiyası"-qiyabi təhsil alan tələbələr üçün, " Biblioqrafik evristika"), 12 fənn proqramı, 4 xaricdə nəşr olunmuş məqalənin və 16 tezisin müəllifi olmaqla Respublika və Beynəlxalq Elmi Konfransların iştirakçısı olmuşdur.

Sima Paşa qızı İsmayılova gənc nəslin yetişdirilməsindəki xidmətləri və elmin-təhsilin inkişafındakı roluna görə 27.12.2012 –ci ildə BDU-nun rektorluğu və BDU-nun HİK-sədri tərəfindən "Fəxri Fərman"-la təltif edilmişdir.

S.İsmayılova "Sahəvi biblioqrafiya"," Biblioqrafiyaşünaslıq", "Uşaq və gənclər üçün informasiya resursları", "Biblogrəfik evristika", magistratura səviyyəsində isə "Sənədlərlə iş", "Azərbaycan biblioqrafik vəsaitlər sistemi" ixtisas fənlərindən mühazirə və məşğələ dərslərini tədris edir.

Kafedranın müəllimi Bayramova İradə Ziyadxan qızı1981-1986-cı illərdəBDU-nun Kitabxanaçılıq fakültəsində təhsil almışdır. O, 2007-ci ildən Kitabxanaçılıq-informasiya fakültəsi, Biblioqrafiyaşünaslıq kafedrasında müəllim vəzifəsində çalışır, 2008-2013-cü illərdəkafedranın dissertantı olmuşdur.

2015-ci ilin 13 mart tarixində "Azərbaycan Respublikasının regionlarının kitabxana-biblioqrafik informasiya təminatı sistemi:müasir vəziyyəti və perspektivləri (2000-2012-ci illər) (Gəncə-Qazax, Quba-Xaçmaz, Lənkəran iqtisadi regionlarının materialları əsasında) mövzusunda dissertasiya işini müdafiə etmişdir. Onun elmi rəhbəri prof. Xəlil İsmayılov, elmi məsləhətçisi isə dos. Nadir İsmayılov olmuşdur. 2016-cı ildəBayramova İradə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. Hal-hazırda Biblioqrafiyaşünaslıq kafedrasının müəllimidir.

Bayramova İradə "Regionların sosial iqtisadi inkişafının kitabxana informasiya təminatı sistemi", "Sənədşünaslıq"," Kitabxanalarda biblioqrafiya işinin təşkili və metodikası" fənlərini tədris edir.

Bayramova İradə Ziyadxan qızı 4 kitabın, 50-dən çox elmim məqalə və tezisin müəllifidir.

Biblioqrafiyaşünaslıq kafedrasında innovasiyaların təbliğində Məmmədov Əliyusif Məhəmməd oğlunun xüsusi yeri vardır. O, 1978-1983-cü illərdə ADU-nun Kitabxanaçılıq fakültəsində təhsil almışdır. 1978-1982-ci illərdə isə Azərbaycan LKGİ MK nəzdində fəaliyyət göstərən İxtira Yaradıcılığı İctimai İnstitutunda təhsil almışdır. 1991-1994-cü illərdə BDU-da əyani aspiranturada təhsil almışdır. 2003-cü ildə ABŞ-da (Blumiqton, İndiana) təsis edilmiş Amerika-Azərbaycan Təhsil və Mədəniyyət fondunun təsisçilərindəndir.

1984-1987-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası, İctimai Elmlər üzrə Elmi İnformasiya Mərkəzinin Biblioqrafik tədqiqatlar və nəşrlər, daha sonra İnformasiya Sistemlərinin Avtomatlaşdırılması şöbəsi, baş laborant, 1987-1991-ci illərdə isə Kitabxanaçılıq fakültəsinin Biblioqrafiya kafedrasının, Biblioqrafik məlumat-axtarış sistemləri" tədris laboratoriyasının müdiri, 1984-cü ildə "İttifaqneftemaş" İstehsalat birliyinin "Neftemaş" Xüsusi Konstruktor Bürosunun Elmi-texniki informasiya və patent bölməsi, mühəndis, 1995-2006-cı illərdə Kitabxanaçılıq fakültəsinin Biblioqrafiya kafedrasının müəllimi olmuşdur. 2006-cı ildən indiyə qədər Kitabxanaçılıq-informasiya fakültəsinin Biblioqrafiyaşünaslıq kafedrasında baş müəllim vəzifəsində çalışır. 2004-cü ildən bu günə qədər, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında çalışır. "Sahəvi biblioqrafiya" (ingilis dilində), "Azərbaycan kitabxanalarının biblioqrafik infomasiya resursları", "İqtisadiyyatın və ekologiyanın informasiya resursları". "Normativ-texniki və patent sənədləri üzrə informaiya xidməti" adlı fənləri tədris edir.

Biblioqrafiyaşünaslıq kafedrasının gənc müəllimlərindən biri Nəbiyeva Namiyə İntiqam qızı 2015-ci ildə Biblioqrafiyaşünaslıq ixtisaslaşması üzrə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. Biblioqrafiyaşünaslıq kaferdrasında əvvəlcə laborant vəzifəsinə təyin edilmişdir. O, elə həmin ildə dissertanturaya qəbul olmuş və hazırda "Elektron biblioqrafik fəaliyyət: Nəzəri-metodiki aspektlərinin tədqiqi (Azərbaycan materialları əsasında) mövzusu üzərində çalışır. Ona pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İslam oğlu İsmayılov və ABŞ İndiana Universitetinin professoru Debora Şou elmi rəhbər təyin olunmuşdur.



Nəbiyeva Namiyə İntiqam qızı 2014-cü ildə ingilis dili üzrə beynəlxalq sertifikat olan İELTS sertifikatını almışdır.

N.Nəbiyeva hazırda kafedrada müəllim vəzifəsində çalışır, ingilis və azərbaycan bölmələrində mühazirə, məşğələ və laboratoriya dərsləri aparır.

N. Nəbiyeva 3 elmi məqalənin və 7 tezisin müəllifi olmaqla müxtəlif Respublika və Beynəlxalq Elmi Konfransların iştirakçısı olmuşdur.

Kafedranın gənc üzvlərindən olan Xudiyeva Vəzufə Hüseynağa qızı 1997-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsinin əyani şöbəsini bitirib. O, 2016-cı ildən "Biblioqrafiyaşünaslıq" kafedrasında baş laborant vəzifəsində çalışır. Həmin ildən dissertantdır. "Əli Bəy Hüseynzadə irsinin biblioqrafik tədqiqi" mövzusunda elmi-tədqiqat işini yekunlaşdırmaq üzrədir. Onun elmi rəhbərləri filologiya elmləri doktoru A.Ə.Kəngərli və dos. N.İ.İsmayılovdur. Müntəzəm olaraq dövri mətbuatda məqalələr, publisistik yazılarla, Respublika və Beynəlxalq səviyyəli konfranslarda məruzələrlə çıxış edir. Bir kitabın və 20 elmi məqalənin və tezisin müəllifidir. Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin Cümhuriyyətin 100 illiyinə həsr etdiyi "Cümhuriyyətə işıq saçan qadınlar" araşdırma yazı müsabiqəsinə məqalə ilə qatılmış və məqalə seçilərək Araşdırma Yazı Toplusuna daxil edilib. Kafedrada saat hesabı qaydada məşğələ və laboratoriya dərsləri aparır.

Müstəqillik illərində kafedranın tədris və elmi həyatında kadr hazırlığında mühüm nailiyyətlər əldə edilmişdir. Belə ki, 1997-ci ildən kafedrada Biblioqrafiyaşünasləq ixtisaslaşması üzrə magistr hazırlığına başlanılmışdır. Apardığımız araşdırma göstərir ki, bu ixtisaslaşma üzrə təhsil alan magistrantlar elm, təhsil və mədəniyyət sahələrində müvəffəqiyyətlə çalışırlar.

Biblioqrafiyaşünaslıq kafedrasının fəaliyyətinin əsas istiqamətlərindən biri də beynəlxalq əməkdaşlıq sahəsində aparılan işlərdir. Bu əlaqələrin ilk elementləri hələ ötən əsrin 50-ci illərindən sonlarında yaranmışdır. Professor M.D.Eyxonqoltsun elmi məsləhətçiliyi ilə Zöhrab Əliyevin namizədlik dissertasiyasını müdafiə etməsi buna parlaq misaldır. Bu proses XX əsrin 70-80-ci illərində daha intensiv xarakter almışdır. Bu əlaqələrin yeni səviyyəyə qalxmasında keçmiş ittifaq miqyasında fakültənin dekanı A.Xələfovun sahə elmi və tədris dairələrində nüfuzunun artması ilə əlaqədar olmuşdur. Bəhs edilən dövrdə Litva Dövlət Universiteti və Moskva Dövlət Mədəniyyət İnstitutunun görkəmli alimləri ilə münasibətlərin qurulması fakültənin şöhrətini artıran səbəblərdən hesab olunmalıdır. 80-ci illərdə kitabxanaçılıq təhsili üzrə ölkə miqyaslı tədbirlərin Bakı Dövlət Universitetində keçirilməsi də prof. A.Xələfovun xidmətləri kimi qeyd olunmaqla yanaşı,dövrün görkəmli biblioqraf alimlərinin kafedranın fəaliyyəti, kollektivi ilə tanış olmasına və gələcəkdə onların dissertasiya işlərinin Moskvada müdafiə edilməsində heç şübhəsiz mühüm rol oynadı. Müstəqillik illərində bu münasibətlər davam etmiş, fakültədə yüksək ixti-

saslı kadrların hazırlanmasında rus alimləri, o cümlədən, professorlardan O.P.Korsunov və Y.S.Zubov yaxından iştirak etmişlər.

Məlumdur ki, hər bir sahədə elmi mühitin formalaşmasında xüsusi dövrü nəşrlərin müstəsna rolu vardır. Kitabxanaçılıq-informasiya sahəsi üzrə əsaslı dövri nəşr 1970-1980 ci illərdə çar olunmuş Bakı Dövlət Universitetini "kitabxanaşünaslıq və biblioqrafiya" seriyasıdır. 10 il müddətində çap olunan bu seriyada biblioqrafiya sahəsində onlarla məqalə çap olunmuşdur. Seriyanın yüksək elmi-nəzəri səviyyədə çap olunmasında onun baş redaktoru professor A.Xələfovun xüsusi əməyi olmuşdur. 80-cı illərdə seriya mövzu məcmuələri ilə əvəz edilmişdir. Azərbaycanda müstəqillik illərində biblioqrafiyaşünaslığın inkişafında 1997-ci ildən bu günə kimi çap edilən "Kitabxanaşünaslıq və biblioqrafiya" (təsisçisi və baş redaktoru professor Xəlil İsmayılovdur) və 2010-cu ildən çap olunan "Kitabxanaşünaslıq və informasiya" (təsisçisi və baş redaktoru professor A.Xələfovdur) jurnallarını ixtisasın simasını müəyyən edən əsas atributlardan hesab etmək olar. Fakültədə həmçinin, "Kitabşünaslıq və nəşriyyat işi" ( təsisçisi mərhum professor B. Allahverdiyev) və "Kitabşünaslıq və redaktor sənəti" (təsisçisi və baş redaktoru dosent K.Aslan) jurnallarının çapını da elmi tədqiqatların istiqamətləndirilməsi və işıqlandırılmasında mühüm rolunu qeyd etmək lazımdır.

Müasir dövr beynəlxalq münasibətlərdə yeni yanaşmalar tələb edir. Biblioqrafiyaşünaslıq kafedrası hazırda ABŞ-ın İndiana Universiteti, Litva Milli kitabxanası, Moskva və Sankt-Peterburq Mədəniyyət və İncəsənət universitetləri, Lvov Milli Texniki kitabxanası ilə, o cümlədən bir sıranüfuzlu beynəlxalq və regional analitik informasiya mərkəzləri ilə əlaqələr saxlayır.

Kafedranın fəaliyyətinin əsas istiqamətlərindən biri də tələbələrin istehsalat təcrübələrinin təşkili və keçirilməsidir. Qüvvədə olan Dövlət Standartına görə sonuncu semestr bütünlükdə istehsalat təcrübəsinə həsr olunur. Ölkənin iri kitabxanalarında təşkil edilən bu təcrübələr gələcək məzunların peşə kompetensiyasının formalaşmasında və əmək bazarında layiqli yer tutmasında mühüm rol oynayır. Məlum həqiqətdir ki elmin inkişafı bilavasitə onun informasiya təminatı ilə üzvi səkildə bağlıdır.

Məlumdur ki, hər bir kafedrada gənc tədqiqatçıların yetişdirilməsində tələbə elmi dərnəkləri mühüm rol oynayır. Bu baxımdan biblioqrafiya kafedrası yaranandan onun nəzdində eyni adlı dərnək yaranmışdır. Mübaliğəsiz demək olar ki, kafedranın elmi-pedaqoji heyətinin bütün üzvləri ayrı-ayrı dövrlərdə məhz həmin dərnəyin ən fəal üzvləri olmuşlar. Hazırda dərnəyin rəhbəri dosent Sima İsmayılovadır.

Beləliklə, Bakı Dövlət Universitetinin Biblioqrafiyaşünaslıq kafedrasının fəaliyyət göstərdiyi 50 ildən artıq bir dövrü yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, kafedra kiçik kollektivlə işə başlamış 70-80-ci illərdə özünün formalaşma dövrünü keçirmiş, müstəqillik illərində tədris fənlərinin və kadrların sayı artmış, biblioqrafiyaşünaslığın tədqiqat obyekti genişlənmiş, yeni tipli gənc kadrların kafedraya cəlb olunması sistemi yaranmışdır. Hesablamalar



göstərir ki, ölkəmizdə biblioqrafiyaşünaslıq istiqaməti üzrə 20-ə yaxın dissertasiya işi müdafiə edilmişdir. Bu işlərin hazırlanması, aprobasiyası və müzakirəsində kafedra mühüm rol oynamışdır. Son illərdə kafedranınelmi potensialı xeyli yaxşılaşmışdır. Hazırda 8 nəfərdən ibarət olan kollektivin 20-yə yaxın monoqrafiya, tədris ədəbiyyatı, 100-dən çox elmi məqaləsi çap olunmuşdur.

*Kitabxana resursları və infomasiya axtarış sistemləri kafedrası.* Azərbaycan Respublikasının müstəqilliyin ilk illərində Kitabxanaçılıq-informasiya fakültəsi böyük çətinliklərlə üzləşmiş, qəbul planı xeyli azalmışdı. Tələbələrin yeni dərsliklərlə, dərs vəsaitləri və proqramlarla təmin edilməsi işi olduqca çətinləşmişdi. SSRİ dövründə fakültə tədris planlarını, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığa dair fənn proqramlarını Moskvadan alırdı. Moskva ilə əlaqələr kəsildikdən sonra onları əldə etmək olduqca çətinləşdi. Lakin tezliklə BDU-da aparılan yenidənqurma işləri və islahatlar fakültənin işinə də öz müsbət təsirini göstərməyə başladı. Qəbul planı ilbəil artırıldı, kafedraların kadr potensialı möhkəmləndirildi, yüksək ixtisaslı müəllim kadrları hazırlamaq üçün şərait yarandı. Müstəqillik illərində fakültənin işinin yenidən qurulmasında, fakültə kollektivinin universitetdə aparılan təhsil islahatlarına cəlb edilməsində fakültə dekanlığının və ixtisas kadrlarının fəaliyyəti təqdirəlayiq olmuşdur.

Kitabxanaçılıq-informasiya fakültəsində professor və müəllim kadrların çoxalması, elmi dərəcəsi olan müəllimlərin sayının artması yeni kafedraların açılması üçün şərait yaradırdı. Məhz buna görə də 1990-1991-ci tədris ilində Əməkdar elm xadimi, professor A.A.Xələfovun təşəbbüsü ilə fakültə rəhbərliyi rektorluğun qarşısında Kitabxanaşünaslıq kafedrasının bazasında yeni Kitabxana fondu və kataloqların təşkili kafedrasının açılması məsələsini qaldırdı. Rektorluq bu məsələyə müsbət münasibətini bildirdi və universitetin böyük Elmi Şurası həmin kafedranın açılması haqqında qərar çıxardı. Beləliklə, Kitabxanaşünaslıq kafedrası iki yerə bölündü. "Kitabxana kataloqları", "Kitabxana fondu" fənlərinin dərsləri və bu fənlərdən dərs deyən müəllimlər - dos. T.F.Quliyev, dos. E.M.Bədəlov, dos. A.Abbasova, dos. A.M.Əliyev, dos. M.M.Həsənov, baş müəllim S.M.Mustafayeva, baş müəllim K.M.Şeyxzamanova Kitabxanaşünaslıq kafedrasından ayrılıb yeni təşkil edilən kafedraya keçirildi. Bu cür bölgü ilk illərdən "Kitabxana fondu" və "Kitabxana kataloqları" fənlərinin tədrisinin yaxşılaşdırılmasına, göstərilən sahələr üzrə elmi tədqiqat işlərinin canlanmasına səbəb oldu.

Kafedranın ilk müdiri vəzifəsinə Kitabxanaşünaslıq kafedrasının dosenti, tarix elmləri namizədi Tacəddin Fərhad oğlu Quliyev seçildi. Vaxtilə Kitabxanaşünaslıq kafedrasının ilk aspirantı olmuş T.F.Quliyev "Azərbaycan Həmkarlar İttifaqı kitabxanalarının tarixi" mövzusunda dissertasiya müdafiə etmiş, uzun illər həmin kafedrada işləmişdi. Sonrakı illərdə laboratoriya müdiri Elmira Əhmədova, laborant Səfurə Hacıyeva, aspirant Seymur Şeydayev kafedraya müəllim qəbul edilmişlər. Lakin dərs yükünün azalması ilə əlaqədar olaraq sonuncu üç nəfər ixtisara düşmüşlər.

Adları qeyd edilən müəllimlərdən 4 nəfəri kitabxanaşünaslığın müxtəlif sahələri üzrə: "Azərbaycanda Həmkarlar İttifaqı kitabxanalarının tarixi" (dos. T.F.Quliyev); "Kənd əhalisinə kitabxana xidmətinin təşkili (1959-1970)" (dos. E.Bədəlov); "Naxçıvan MR-da kitabxana işinin tarixi (1920-1980-ci illər)" (dos. A.Əliyev); "M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının inkişaf meyilləri, fəaliyyətinin təkmilləşdirilməsi (1959-1985)" (dos. A.Abbasova) adlı mövzularda namizədlik dissertasiyaları müdafiə etmişlər.

Kafedra təşkil edildikdən sonra tədris prosesinin təşkili daha da yaxşılaşdı, ixtisas kurslarından mühazirələr oxunmağa, seminar və laboratoriya məşğələləri deyilməyə başladı, elmi tədqiqat işlərində irəliləyişlər oldu. "Kitabxana fondu", "Kataloqların təşkili" fənlərinin ayrı-ayrı bölmələri üzrə ciddi tədqiqatlar aparıldı. Kafedranın müəllimləri tərəfindən bir sıra monoqrafiya, dərs vəsaitləri və proqramlar hazırlanıb nəşr edilməyə başladı.

1996-cı ildə kafedranın müəllimləri tərəfindən hazırlanıb, prof. A.Xələfovun redaktorluğu ilə nəşr edilən "Kitabxana kataloqları" adlı dərs vəsaiti fakültənin tarixində mühüm hadisə sayıla bilər. Respublikamızda ilk dəfə çap olunmuş bu vəsaitdə kitabxana kataloqlarının ayrı-ayrı sahələri ətraflı təhlil edilib işıqlandırılmışdır. Dərs vəsaiti fakültənin tələbələri üçün böyük əhəmiyyət kəsb etmişdir. Bu cür vəsaitlərin nəşri respublikamızın kitabxanalarında fond və kataloqların təşkili prosesinə, onların müasir şəraitlə ayaqlaşmasına müsbət təsir göstərmişdir.

Kafedranın müəllimləri tərəfindən müxtəlif illərdə ayrı-ayrı sahələr üzrə dərs vəsaitləri hazırlanmışdır. Dos. Tacəddin Quliyevin "Azərbaycanda kitabxanaçılıq işi" (Respublika Həmkarlar ittifaqı kitabxanalarının materialları əsasında: I və II hissələr) (1996, 2004); dos. Mayıl Həsənov və dos. Almaz Abbasovanın «Bədii və incəsənət əsərlərinin biblioqrafik təsviri qaydaları (1994); dos. T.Quliyev, dos. M.Həsənov və dos. A.Əliyevin "Təbiətşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi (Metodik vəsait)" (1996); dos. T.Quliyev, dos. A.Abbasova və baş müəllim Sənubər Mustafayevanın "Biblioqrafik təsvirin tərtibi qaydaları" (1996); baş müəllim S.Mustafayevanın "Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi" (2001); dos. M.Həsənovun "Kitabxana fondunun formalaşması və idarə edilməsi" (2004); baş müəllim S.Mustafayevanın "Biblioqrafik təsvirin tərtibi qaydaları (2-ci nəşri)" (2007) adlı dərs vəsaitləri çap edilmişdir.

Qiyabi şöbənin tələbələri üçün dos. A.Əliyevin "Kitabxana fondu" fənni üzrə, baş müəllim S.Mustafayevanın "Kitabxana kataloqları", "Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi" fənləri üzrə metodik göstərişləri hazırlanmışdır.

Kafedrada tədris edilən fənlərin proqramları da hazırlanıb çap edilmişdir. Belə ki, kafedranın müəllimləri tərəfindən "Kitabxana kataloqları" (1994), dos. T.Quliyev tərəfindən "Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində (MKS) informasiya-axtarış sistemləri" (2001), "Kataloqlaşdırmanın müasir problemləri" (2003); dos. M.Həsənov tərəfindən "Kitabxana fondu" (2001), "Sənədlərin elmi sistemləşdirilməsi metodikası" (2003); dos. A.Əliyev tərəfindən "Sənədlərin predmetləşdirilməsi, predmet kataloqu və onun avtomatlaşdırılması (seçmə fənn)" (2001), "UOT: quruluşu və tətbiqi prinsipləri" (2003); baş müəllim S.Mustafayeva tərəfindən "Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi" (2001) fənləri üzrə bakalavr və magistratura pillələri üçün tədris proqramları çap edilmişdir.



Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri, prof. Xəlil İsmayılov tərəfindən 2004-cü ildə Kitabxanaşünaslıq kafedrasında yerinə yetirilən fundamental elmi-tədqiqat işlərindən biri "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi: 1918-2000-ci illər (tarixi, müasir vəziyyəti və perspektivləri)" mövzusunda müvəfəqiyyətlə müdafiə edilən doktorluq dissertasiyası olmuşdur. Əməkdar elm xadimi, professor A.A.Xələfovun elmi rəhbərliyi ilə yerinə yetirilən bu elmi-tədqiqat işi milli kitabxanaşünaslıq elmində yüksək əlamətdar hadisə kimi qiymətləndirilmişdir. Bu müdafiə prosesində Azərbaycan mütəxəssisləri ilə yanaşı, görkəmli rus kitabxanaşünas alimləri prof. T.F.Karatigna və prof. A. Q. Altuxova da iştirak etmiş, Xəlil İsmayılovun dissertasiya işinin yüksək elmi-nəzəri və təcrübi əhəmiyyətini şərh edərək əsaslandırmış, bu fundamental tədqiqat işinin kompleks tərəfləri ilə bağlı obyektiv elmi mövqe ortaya qoymuşlar. Belə ki, prof. T.F.Karatigna dissertasiya işinin opponenti kimi elmi-tədqiqat işinə yüksək rəy vermiş, eləcə də, elmi rəhbər prof. A.A.Xələfovun bu prosesdəki fəaliyyətini yüksək qiymətləndirmişdir. Dissertasiya işinin rəyçilərindən olan prof. A.Q.Altuxova tərəfindən də dissertasiya işinə dair əhəmiyyətli elmi yanaşma ortaya qoyulmuş, elmi-tədqiqat işinin nəzəri müddəaları və əsas elmi nəticələri ətraflı şərh edilərək əsaslandırılmışdır. Beləliklə, Xəlil İsmayılov Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tarix elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. O, 2007-ci ildə professor elmi adı almış, 2009-cu ildə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, 2013-cü ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü (akademiki) seçilmişdir. Burada qədirşünaslıq naminəonu da qeyd etməliyik ki, kafedra müdiri, prof. Xəlil İsmayılov tərəfindən 1984-cü ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Sovet hakimiyyəti illərində Azərbaycanda partiya kitabxanaları (tarixi, müasir vəziyyəti və perspektivləri)" mövzusunda müdafiə edilmiş namizədlik dissertasiyasının da elmi rəhbəri Azərbaycanda milli kitabxanaşünaslıq elmi məktəbinin banisi, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professorA.A.Xələfov olmuşdur. Məhz prof. A.A.Xələfov tərəfindən əsası qoyulan milli kitabxanaşünaslıq elmi məktəbinin görkəmli nümayəndəsi kimi, prof. X.İsmayılov Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri kimi onun inkişafı və məhsuldar fəaliyyəti naminə əhəmiyyətli elmi-pedaqoji və təşkilati iş aparır.

Kafedranın müəllimi Sevda Xələfova 2008-ci ildə "XX əsrin II yarısında Azərbaycanda əhaliyə kitabxana xidmətinin təşkili (1970-1980-ci illər)" mövzusunda (elmi rəhbər prof. X.İ.İsmayılov) dissertasiya işini müdafiə etmiş və "Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990)" adlı monoqrafiya nəşr etdirmişdir.

Həmçinin, 2015-ci ildə kafedranın müəllimi Zahidə Rzayeva prof. X.İ.İsmayılovun elmi rəhbərliyi ilə "Respublika elmi kitabxanalarının informasiya axtarış sistemlərinin formalaşması mərhələləri" mövzusunda dissertasiya müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almış və "Respublika elmi kitabxanalarının informasiya axtarış sistemlərinin formalaşması mərhələləri (1960-2005)" adlı monoqrafiya nəşr etdirmişdir. 2016-ci ildə kafedranın müəllimi Rəşad Qardaşov "Azərbaycanda kitabxanaçılıq təhsili: yaranması, inkişafı və müasir vəziyyəti" (elmi rəhbər prof. X.İsmayılov) mövzusunda dissertasiya işi müdafiə etmiş və "Azərbaycanda kitabxanaçılıq təhsili: yaranması, inkişafı, müasir vəziyyəti" adlı monoqrafiya nəşr etdirmişdir. Biblioqrafiyaşünaslıq kafedrasının dissertantı İradə Bayramova prof. X.İsmayılovun elmi rəhbərliyi ilə 2015- ci ildə "Azərbaycan Respublikası regionlarının kitabxana-biblioqrafik informasiya təminatı sistemi: müasir vəziyyəti və perspektivləri (2000-2012-ci illər) (Azərbaycan Respublikasının Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının materialları əsasında" adlı dissertasiya işini müdafiə etmişdir. Kafedranın daha bir dissertantı, İran İslam Respublikasının vətəndaşı Mitra Dadaşi Nasrin 2015-ci ildə "Təbriz Universiteti kitabxanalarının informasiya axtarış sistemləri (müasir vəziyyəti və perspektivləri" adlı (elmi rəbər prof. X.İsmayılov) dissertasiya işi müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Azərbaycan kitabxanaşünaslığında ilk dəfə olaraq xarici ölkə vətəndaşı tərəfindən məhz Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasında bu elmi tədqiqat işinin yerinə yetirilməsi millikitabxanaşünaslıq elminin coğrafiyasının genişlənməsi və bu sahə üzrə elmi tədqiqatlara xarici ölkə mütəxəssislərinin maraqlarının formalaşdırılması istiqamətində əlamətdar hadisə kimi qiymətləndirilə bilər. M.Dadaşi Nasrin tərəfindən yerinə yetirilən bu elmi tədqiqat işi Güney Azərbaycanın, xüsusilə, Təbriz şəhərinin mədəniyyət tarixi və kitabxana işi, Təbriz Universitetinin təhsil sistemi fonunda Universitet kitabxanasının fəaliyyəti və rolu, eləcə də, informasiya axtarış sistemlərinin müasir vəziyyəti və perspektivlərinin öyrənilməsi baxımından yüksək səviyyəli, bitkin elmi-nəzəri ümumiləşdirmə kimi səciyyələndirilə bilər.

Kafedranın müdiri, prof. X.İ.İsmayılovun elmi rəhbərliyi ilə kafedranın dissertantı, ADA Universiteti Kitabxanasının direktoru Elçin Məmmədov 2016-cı ildə "Müasir elektron kitabxana şəbəkələrinin yaradılması mexanizmlərinin işlənilməsi" mövzusunda dissertasiya işi müdafiə edərək texnika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Bundan əlavə Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri, prof. X.İ İsmayılovun elmi rəhbərliyi ilə pedaqoji elmlər namizədi Yusif Qazıyev 2017-ci ildə "Azərbaycanda məktəb kitabxanalarının inkişafı tarixindən" adlı doktorluq dissertasiyasını müdafiə edərək pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almışdır.



2018-ci ildə kafedranın dissertantı Oruc Quliyev "Müstəqillik illərində Azərbaycan Respublikasında şəhər əhalisinə kitabxana-informasiya xidməti (Bakı, Gəncə və Naxçıvan kitabxanalarının iş təcrübəsi əsasında) mövzusunda (elmi rəhbər prof. X.İ.İsmayılov) dissertasiya işini AMEAM.Füzuli adına Əlyazmalar İnstitutunda müdafiə edərək təsdiq üçün Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasına təqdim etmişdir. Prof. X.İsmayılovun elmi rəhbərliyi ilə G.Hacıyeva dissertasiya işini tamamlamış və AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda müzakirədən keçmişdir.

Kafedranın dissertantı olmuş A.Rzayeva prof. X.İ.İsmayılovun elmi rəhbərliyi ilə "Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin Soraq-Biblioqrafiya Aparatı: Müasir vəziyyəti və yeniləşməsi (1980-2000)" mövzusunda dissertasiya işini tamamlayaraq kafedraya təqdim etmişdir. Kafedranın digər dissertantı olmuş A.Cabbarova da dissertasiya işini tamamlamaq üzrədir.

Hazırda kafedranın doktorantları D.Məhəmmədlivə A.Səfərova prof. X.İsmayılovun elmi rəhbərliyi ilə dissertasiya işini tamamlayaraq kafedraya təqdim etmişdir. 1 nəfər doktorant (A.Şəhavətova) və 1 nəfər dissertant (U.Manafova) dissertasiya işi mövzusu üzərində işlərini davam etdirməkdədirlər.

2007-ci ildən Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasında magistr hazırlığına başlanılmışdır. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il tarixli 95 №-li qərarı ilə təsdiq edilən yeni təsnifatında yer alan 060215 təsnifat indeksinə əsasən kafedraya iki ixtisaslaşma üzrə ("Sənəd resursları və informasiya axtarış sistemləri" və "Kitabxana fondlarının formalaşması və istifadəsi") ixtisaslaşması üzrə yer verilmişdir. Hazırda kafedrada əsasən "Sənəd resursları və informasiya axtarış sistemləri" ixtisaslaşması üzrə kadr hazırlığı həyata keçirilir.

Hazırda kafedrada respublika kitabxanalarında avtomatlaşdırılmış kataloqlaşdırmanın inkişafına, elektron kataloqunun yaradılması sahəsində elmi tədqiqat işlərinin aparılmasına diqqət yetirilir. Bununla əlaqədar olaraq kafedranın adı müasir dövrün tələblərinə uyğun olaraq dəyişdirilərək "Kitabxana resursları və informasiya-axtarış sistemləri" adlandırılmışdır. Bu dəyişiklik təkcə kafedranın adında deyil, burada həyata keçirilən işlərin məzmununda da aşkar şəkildə özünü göstərir. Məsələn fənlərin tədrisi zamanı müasir dövrün tələblərinə cavab verən və cəmiyyətdə baş verən dəyişiklikləri özündə əks etdirən "Kitabxana-informasiya resurslarının idarə olunması", "Universal Onluq Təsnifat: Quruluşu və tətbiqi prinsipləri", "Kitabxana sənədlərinin mühafizəsi və bərpası", "Sənədlərin biblioqrafik təsviri, təsnifləşdirilməsi və nəşr standartları" kimi fənlərin tədris planına salınması buna misal ola bilər.

Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasında tədris olunan fənlər həm bakalavr, həm də magistratura pillələrini əhatə edir. Bakalavr pilləsində kafedra üzrə aşağıdakı fənlər tədris olunur: "Kitabxana informasiya resursları", "Sənədlərin biblioqrafik təsviri", "Sənədlərin biblioqrafik

təsnifləşdirilməsi", "Normativ-texniki, patent sənədlərinin təsviri və təsnifləşdirilməsi", "Beynəlxalq kitabxana təsnifatları", "Kitabxanaların avtomatlaşdırılması. IRBIS proqramı", "Elektron kataloqlar", "Məktəb kitabxanalarında məlumat axtarış sistemlərinin təşkili", "MKS-lərin informasiya təminatı", "Kitabxanalarda elektron informasiya resursları", "Elektron informasiya axtarış sistemləri".

Magistratura pilləsində isə "Kitabxana-informasiya sistemlərinin strukturu və dizaynı", "Kitabxana resursları və informasiya axtarış sistemləri fənlərinin tədrisi metodikası", "Kitabxanalarda sənədlərin mühafizəsi və bərpası", "UOT-un quruluşu və tətbiqi prinsipləri", "Sənədlərin analitik-sintetik işlənməsi", "Kitabxanalarda informasiya ehtiyatlarının idarə edilməsi", "Sənədlərin elmi sistemləşdirilməsi metodikası" fənləri keçilir.

Kitabxana resursaları və informasiya xtarış sistemləri kafedrasında tərəfindən həyata keçirilən daha bir addım 1997-ci ilin oktyabrından fakültədə əməkdaşların, professor-müəllim heyətinin, magistr və doktorantların, eləcə də kitabxana işi sahəsində çalışan və mədəniyyət tarixinin tədqiqatı ilə məşğul olan insanların elmi tədqiqat işlərinin, məqalə və referatlarının çap edilərək ictimaiyyətə çatdırılmasını nəzərdə tutan "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri, metodik və təcrübi jurnalının (təsisçi və baş redaktor tarix elmləri doktoru, prof. X.İ.İsmayılov) buraxılması oldu. Jurnalda ilk yaradıldığı dövrdən indiyədək 3 bölmə üzrə (Kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq) elmi məqalələr nəşr olunur, eləcə də, kitabxanaşünas, biblioqrafiyaşünas və kitabşünas alimlərinin əlamətdar yubiley yazıları, müvafiq sahələr üzrə nəşr olunan fundamental elmi əsərlər haqqında rəylər və s. işıqlandırılır. Jurnalda xarici ölkə mütəxəssislərinin məqalələri də nəşr olunmaqdadır. Jurnala əsasən Azərbaycan, rus və ingilis dillərində təqdim olunan məqalələr qabaqcıl dünya elmi nəşrlərinin təcrübəsinə uyğun olaraq, eyni zamanda ingilis və rus dillərində rezümelərlə birlikdə nəşr olunur. Jurnalın redaksiya heyətinə Azərbaycan mütəxəssisləri ilə yanaşı qabaqcıl xarici ölkə mütəxəssisləri də daxildir. Elmi tərtibatla yanaşı, jurnalın ümumi texniki tərtibatı da yüksək səviyyədədir.Artıq 22 ildir ki nəşr olunan jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının rəsmi siyahısında qeydiyyatdadır. Ümumiyyətlə, bu jurnala elmi-mədəni mühitdə ciddi uğur qazanmış, xüsusilə, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, informasiya fəaliyyəti və kitabşünaslıq sahəsində elmi tədqiqatların əlaqələndirilməsi və istiqamətləndirilməsində əhəmiyyətli mövqe tutmuşdur.

*Kafedranın QHT-lərlə əlaqələri və beynəlxalq əməkdaşlıq.* Kafedranin müdiri, prof. X.İ.İsmayılovun fakültənin bir sıra əməkdaşları və respublikanın kitabxana ictimaiyyətinin nümayəndələri ilə birgə təsis etdiyi Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının (AKİİA) da, həm Kitabxanaçılıq-informasiya fakültəsinin, həm də kafedranın kompleks fəaliyyətində böyük rolu olmuşdur. Belə ki, təsis olunduğu vaxtdan dərhal sonra AKİİA dünyanın bir çox ölkələrində fəaliyyət göstərən kitabxana təşkilatları, beynəlxalq təşkilatlar



ilə sıx işgüzar əlaqələr qurmağa başlamışdır. Bunların arasında ilk növbədə ABŞ-ın Azər-baycandakı səfirliyi, Açıq Cəmiyyət institutunun Bakı ofisi, Amerika Kitabxana Assosiasiyasını qeyd etmək olar. Fakültənin bir çox beynəlxalq proqramlarda və layihələrdə yaxından iştirakı məhz AKİİA-nın təşkilati dəstəyi ilə mümkün olmuşdur. Bu layihə və tədbirlər təkcə universitetə deyil, bütün respublikada kitabxana işinə fayda gətirmişdir. Belə tədbirlər içərisində 1999-cu ildə ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkilati və maliyyə yardımı ilə keçirilmiş seminarı qeyd etmək olar. Respublikamızda kitabxana fəaliyyəti ilə bağlı ilk beynəlxaq tədbir olan bu seminara ABŞ-dan, Litvadan və Rusiya Federasiyasından gəlmiş kitabxanaçı mütəxəssislər qatılmışdı. Buraya müasir kitabxana-bibilioqrafik fəaliyyətdə geniş istifadə edilən maşınla oxunan kataloqlaşdırma (MARC) texnologiyaları müzakirə edilmişdir. Xaricdən gələn qonaqlar fakültədə olan tədris prosesi ilə tanış olmuşlar.

Yenə həmin ildə fakültənin alimlərinin və AKİİA-nın təklifi və ABŞ səfirliyinin dəstəyi ilə Bakıda Kitabxanaçılar üçün İnformasiya-resurs və təlim mərkəzi (KİRTM) təsis edilmişdir ki, burada kitabxana işçiləri ilə yanaşı fakültənin əməkdaşları da yeni kitabxana-informasiya texnologiyalarına dair məşğələlərdə iştirak etmişdir. Bu mərkəzin rəhbərləri amerikalı Kitabxana mütəxəssisi Pol Miller və digər mütəxəssislər fakültənin beynəlxalq nüfuz və əlaqələrinin genişlənməsinə öz yardımını göstərmişlər.

Kafedranın və fakültənin beynəlxalq əlaqələrinin inkişafında Avrasiya fondunun dəstəyi ilə həyata keçirilmiş "Qafqaz" Treninq mərkəzinin böyük əhəmiyyəti olmuşdur. Cənubi Qafqaz Respublikalarında kitabxana işinin kitabxanaçı təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə yönəlmiş bu layihədə bu sahənin mütəxəssisləri üçün yeni tipli interaktiv məşğələlər keçirilmişdir ki, bu işdə də fakültənin əməkdaşlarına amerikalı və gürcü mütəxəssisləri yardım göstərmişlər. Layihə çərçivəsində fakültənin nümayəndəsi, AKİİA-nın prezidenti prof. X.İsmayılov bir neçə dəfə Tbilisi şəhərində olmuş gürcu həmkarlar ilə faydalı görüşlər keçirmişdir.

Həmçinin, kafedranın və fakültənin beynəlxaq əlaqələrinin genişləndirilməsində Avropa Şurasının TASİS proqramının çərçivəsində həyata keçirilən "Universitetlərin modernləşməsi" proqramının da böyük əhəmiyyəti olmuşdur. Bu uzunmüddətli proqram Avropanın inkişaf etmiş ölkələrinin, ilk növbədə Fransa və Belçikanın ali təhsil sahəsində təcrübəsinin öyrənilməsində və MDB ölkələrində, o cümlədən Azərbaycanda tətbiq edilməsini nəzərdə tuturdu. Bu layihə çərçivəsində prof. X.İsmayılov 2001-ci ilin iyulunda Belçikanın Namur şəhərində, 2003-cü ilin mayında isə Fransanın müxtəlif şəhərlərində yerləşən ali məktəblərdə təhsil işinin təşkili ilə yaxından tanış olmuşdur.Bu proqram çərçivəsində fakültənin müəllimi Ə.Məmmədov 2002-ci ilin noyabrında Lion şəhərində yerləşən Milli Ali Kitabxanaçılıq İnformasiya mərkəzində keçirilən təlimlərdə iştirak etmişdir.

Kafedranın və fakültənin yaxından iştirak etdiyi digər bir beynəlxalq layihə ABŞ Dövlət Departamentinin yardımı ilə həyata keçirilmiş BDU və İn-

diana Universitetləri (ABŞ) arasında əlaqə proqramı olmuşdur. Hər iki universitetin pedaqoji kollektivi arasında əlaqələrin yaradılması, təcrübənin qarşılıqlı öyrənilməsinə yönəlmiş bu layihədə əsasən, AKİİA-nın xətti ilə BDU-nun Tarix, Hüquq, Jurnalistika, Kitabxanaçılıq-informasiya fakültəsinin əməkdaşları yaxından iştirak etmişdir. Bu layihə çərçivəsində AKİİA-nın xətti ilə fakültənin müəllimi Ə.Məmmədov 2003-cü ilin yanvar-may aylarında İndiana Universieti Kitabxana-İnformasiya Elmləri məktəbində ixtisasartırma kurslarında olmuşdur. Bu ezamiyyət ərzində o dörd konfransda iştirak etmiş və tezis dərc etdirmişdir. Bu proqramın tərkib hissəsi kimi 2003-cü ildə İndiana Universitetinin biblioqrafı Bob Qollart BDU-ya gələrək universitetin və Kitabxanaçılıq-informasiya fakültəsinin işi ilə yaxından tanış olmuşdur. Bundan əlavə yenə həmin universitetin magistri Meqan Mok Kril də 3 ay ərzində BDU-da olmuş, Amerikaşünaslıq mərkəzində çalışmış, Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri ilə təlim keçmişdir.

AKİİA dünyanın Kitabxana-informasiya fəaliyyəti sahəsində ən böyük beynəlxalq təşkilatına - IFLA-ya Azər-baycandan üzv kimi qəbul edilmiş ilk təşkilat olmuşdur. AKİİA-nın prezidenti prof. X.İsmayılovun rəhbərliyi altında Azərbaycan nümayəndə heyəti 2001-ci ildə ABŞ-ın Massaçusets Ştatının Boston şəhərində və 2005-ci ildə Norveçin Oslo şəhərində, 2006-cı ildə Cənubi Koreyanın paytaxtı Seul şəhərində keçirilən İFLA-nın illik konfranslarında Azərbaycanın kitabxana ictimaiyyətini təmsil etmişdir. Həmçinin, BDU-nun maliyyə dəstəyi ilə 2003-cü ilin may-iyun aylarında Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı X.İsmayılovun da iştirak etdiyi BDU-nun 10 nəfər əməkdaşı Boloniya təhsil sisteminin tətbiqi ilə bağlı Fransanın Nitsa Universitetində və Lion şəhərində fəaliyyət göstərən ENSİB Ali Kitabxanaçılıq Məktəbində olmuş və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı proseslərlə əyani tanış olmuşlar.

Eləcə də, 2002-ci ildə AKİİA-nın xətti ilə fakültədə kitabxanaşünaslığa dair son texnologiyalar və qabaqcıl təcrübə metodlarını öyrənmək məqsədilə 7 günlük kurs təşkil edilmiş, bu kursda fakültə əməkdaşlarından prof. A.A Xələfov, prof.X.İsmayılov, dos. R.Kazımov, dos. N.İsmayılov, b/m. S.Mustafayeva və b. mühazirələr oxumuşlar. Eləcə də, 2012-ci ildə həmin məqsədlə 10 günlük daha bir kurs təşkil edilmiş, fakültənin professor-müəllim heyəti tərəfindən müxtəlif qabaqcıl təcrübə müddəalarına dair mühazirələr deyilmişdir.

Kafedranın Baltikyanı ölkələrdəki həmkarları ilə də sıx beynəlxalq əlaqələri mövcuddur. 4-11 noyabr 2004-cü ildə Açıq Cəmiyyət İnstitutunun yardımı ilə prof. X.İsmayılovun başçılığı ilə Azərbaycanı təmsil edən nümayəndə heyəti Litvaya səfər etmiş, kitabxanaçılıq işi, kitabxana-informasiya təhsili, peşə təşkilatlarının fəaliyyəti ilə tanış olmuşlar.

Beləliklə, bütün yuxarıda qeyd edilənlər Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının həm Qeyri-Hökumət Təşkilatları ilə optimal əməkdaçlığının, həm də geniş beynəlxalq əlaqələrinin olmasını bir daha sübut edir.



Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasının elmi və tədris fəaliyyətində son iki ildə əldə etdiyi ən ciddi naliyyliətləri sırasında kafedra əməkdaşları tərəfindən iki fundamental dərsliyin nəşr etdirilməsidir. Belə ki, prof. X.İ İsmaylov və baş müəllim S.M.Mustafayeva tərəfindən 2017-ci ildə "Sənədlərin biblioqrafik təsviri" adlı fundamental dərslik nəşr olunaraq professor-müəllim və tələbə heyətinin, respublikanın kitabxana ictimaiyyətinin istifadəsinə verilmişdir. Prof. X.İ.İsmayılov və baş müəllim Sənubər Mustafayeva tərəfindən "Sənədlərin biblioqrafik təsnifləşdirilməsi" adlı daha bir dərslik isə 2018-ci ildə nəşr etdirilmişdir ki, bu da kafedranın tədris sistemində əsaslı yer tutan sənədlərin biblioqrafik təsviri və təsnifləşdirilməsi kimi fənlərin tədrisinin optimallaşdırılmasına, mühazirə və seminar dərslərinin fundamental mənbə bazasının formalaşdırılması istiqamətində atılan ciddi əməli addım kimi yüksək əhəmiyyət daşıyır.

Son illər kafedranın elmi fəaliyyətində nəzərə çarpan daha bir mühüm məsələ isə kafedra əməkdaşlarının beynəlxalq nüfuzu yüksək olan xarici elmi nəşrlərdə məqalələrlə çıxış etməsidir. Belə ki, buna kafedra əməkdaşlarından dos. S.Xələfova, dos.əvəzi R.Qardaşov, müəllim D.Məhəmmədli kafedranın elmi fəaliyyətinin müxtəlif istiqamətlərinə dair problemlərlə bağlı elmi məqalələrlə beynəlxalq mötəbər informasiya nəşrlərində ayrı-ayrı vaxtlarda çıxış etməsini misal göstərə bilərik. Bu qeyd etdiyimiz amillər də, kafedranın ümumi reytinq balının ildən-ilə yüksəldilməsinə, kəmiyyət və keyfiyyət göstəricilərinin dinamik artımına gətirib çıxarır.

Ümumilikdə Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasında yarandığı dövrdənbu günədək 7 monoqrafiya, 13 dərs vəsaiti, 3 dərslik, 1200-dən çox məqalə və tezis, 45 fənn proqramı çap edilmişdir.

Hazırda 1 nəfər professor, 5 nəfər dosent, 1 nəfər baş müəllim, 1 nəfər müəllim, 1 nəfər laboratoriya müdiri, 1 nəfər baş laborantın çalışdığı Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının təşəbbüsü artıq bir neçə ildir ki, BDU-da tələbələrin respublika elmi konransının keçirilməsi də kafedranın elmi və tədris fəaliyyətind diqqətəlayiq məsələ kimi qiymətləndirilə bilər. Bu təşəbbüs AKİİA ilə birlikdə həyata keçirilərək tələbələrin elmi işə maraqlarının formalaşdırılması və istiqamətlədirilməsinə yönələn ciddi stimul yarada bilir.

Hazırda kafedranın planlı elmi-tədqiqat işlərinin istiqamətləri sırasına aşağıdakılar daxildir:

– Azərbaycan Respublikasında kitabxana resurslarının inkişafı və müasir vəziyyəti;

– Kitabxanalarda informasiya-axtarış sistemlərinin tətbiqi problemləri;

– Regional kitabxana resurslarının yerləşdirilməsi;

– Elektron kataloqlaşdırma;

– Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemləri;

– Sənədlərin biblioqrafik təsviri, təsnifləşdirilməsi.

Beləliklə, Azərbaycan xalqının milli sərvəti olan, ona bir əsrə yaxındır ki, şərəflə xidmət edən doğma Bakı Dövlət Universitetinin təntənəli 100 illiyi ərəfəsində onun ayrılmaz strukturlarından olan Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası üzərinə düşən vəzifələrin həlli və icrası üçün kompleks addımları həyata keçirməyə çalışaraq, doğma Universitetin işinə öz töhfələrini verməyə çalışır.

*Kitabşünaslıq və nəşriyyat işi kafedrası.* Əvvəldə qeyd etdiyimiz kimi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin göstərişinə əsasən 1962-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsi həmin ili sentyabrın 1-dən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi nəzdindəki Kitabxanaçılıq şöbəsinin əyani və qiyabi bölmələrinin birləşdirilməsi və müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması haqqında əmr vermişdi. Respublikamızın kitab ticarəti müəssisələrinin yüksək ixtisaslı mütəxəssis kitabşünas-biblioqraf kadrlara olan tələbatı nəzərə alınaraq 1963-cü ildə isə Kitabxanaçılıq fakültəsinin nəzdində yeni bir şöbə – Kitabşünaslıq və kitab ticarətinin təşkili şöbəsi təşkil edildi, bununla da Azərbaycanda ali kitabşünaslıq təhsilinin əsası qoyuldu

Beləliklə, Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə 1963/1964-cü tədris ilində "Kitabşünaslıq və kitab ticarətinin təşkili" ixtisası üzrə qiyabi və axşam şöbələrinə tələbə qəbulu başlanılmışdır. Kitabxanaçılıq fakültəsinin təcrübəli kollektivinin, respublikamızın görkəmli kitabşünaslarının və kitab ticarəti müəssisələrinin səriştəli mütəxəssislərinin bu mühüm işə cəlb edilməsi qısa müddətdə öz bəhrəsini verdi. Az bir zaman içərisində bu şöbədə kadr hazırlığının təşkili sahəsində mühüm nailiyyətlər qazanıldı. 1968/1969-cu tədris ilində "Kitabşünaslıq və kitab ticarətinin təşkili" ixtisası üzrə əyani şöbəyə tələbə qəbulunun elan edilməsi elə bu uğurların bariz nümunəsi idi.

1960-1970-ci illərdə BDU-nun Kitabşünaslıq və kitab ticarətinin təşkili şöbəsi milli kitab mədəniyyətinin formalaşmasında, müxtəlif növ kitabların nəşrə hazırlanması məsələlərinin tədrisində, nəşriyyatlarla kitabxanalar arasında əlaqələrin möhkəmləndirilməsində, kitabın oxucular və alıcılar arasında məqsədyönlü şəkildə yayılmasında, nəşriyyatların ali təhsilli kitabşünas, nəşriyyat işçisi və naşir

Qeyd edək ki, Sovet hakimiyyəti dövründə "Kitabşünaslıq və kitab ticarətinin təşkili" ixtisası üzrə 800 nəfərdən çox yüksək ixtisaslı kadr hazırlanmışdır.

Məlum olduğu kimi, 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Bu sənəd Azərbaycanın müstəqil suveren respublika kimi fəaliyyətinin əsası oldu. Beləliklə, Azərbaycan Respublikasının dünyada tanınması və beynəlxalq aləmdə özünün layiqli yerini tutması üçün imkan yarandı. Eyni zamanda Azərbaycanın müstəqilliyi ölkədə elm, maarif, mədəniyyət və təhsil sahəsində geniş inkişafın təminatı oldu.



Ölkəmizdə təhsilin inkişafı yeni zəruri ixtisaslar üzrə kadrların hazırlanmasını ön plana çıxardı. 1990-cı illərin əvvəllərində Azərbaycanda kitabın nəşri, təbliği və yayılması ilə məşğul olan yüksək ixtisaslı kitabşünas kadrların hazırlanması ciddi zərurətə çevrilmişdi. Bu baxımdan Bakı Dövlət Universitetinə yeni ixtisaslar üzrə tələbələrin qəbulunun təşkilində rektorluğun və o zamankı Kitabxanaçılıq fakültəsinin dekanı professor Abuzər Xələfovun yaxından iştirakını xüsusi qeyd etmək lazımdır. Belə ki, o, yenidən yuxarı təşkilatlara müraciət edərək, "Kitabşünaslıq və kitab ticarətinin təşkili" ixtisasına böyük tələbat olduğunu bildirmiş, bu ixtisasa tələbə qəbulunun aparılmasına səy göstərmişdir.

Təsadüfi deyil ki, o vaxt fakültə Elmi Şurasında bu məsələ problem kimi qaldırılmışdı. Elmi Şurada qeyd olundu ki, 1960-1970-ci illərdə Bakı Dövlət Universitetində kitabşünaslıq və kitab əmtəəşünaslığı üzrə kadrlar hazırlanmış, lakin sonradan ədalətsiz olaraq bu ixtisasa tələbə qəbulu dayandırılmışdır. Bu amili nəzərə alan Kitabxanaçılıq fakültəsinin dekanı, fakültə Elmi Şurasının sədri professor Abuzər Xələfov və başqaları belə bir təkliflə çıxış etdilər ki, Azərbaycanın müstəqilliyi şəraitində "Kitabşünaslıq və kitab ticarətinin təşkili" ixtisasının yenidən açılmasına, yüksək ixtisaslı kadr hazırlığına böyük ehtiyac vardır. Bu təklifi fakültənin rəhbərliyi və Elmi Şuranın üzvləri yüksək qiymətləndirərək yekdilliklə müdafiə etdilər. Ona görə də Kitabxanaçılıq fakültəsinin dekanlığının BDU rektorluğu qarşısında "Kitabşünaslıq və kitab ticarətinin təşkili" ixtisası üzrə kadrların hazırlanması ilə bağlı məsələ qaldırması yekdilliklə qərara alındı.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi "Kitabşünaslıq və kitab ticarətinin təşkili" şöbəsinin bərpa edilməsini məsləhət bildi. Bu şöbənin tədris planını gətirmək üçün Biblioqrafiyaşünaslıq kafedrasının dosenti B.Allahverdiyev Rusiyaya Moskva şəhərinə ezam olundu. Fakültə dekanı prof. A.Xələfovun rəhbərliyi ilə təşkil edilmiş komissiya BDU-da yaradılacaq "Kitabşünaslıq və kitab ticarətinin təşkili" şöbəsi üçün Moskva Dövlət Poliqrafiya İnstitutunun tədris planı əsasında yeni tədris planı işləyib hazırladı. Respublikamızın xüsusiyyətləri nəzərə alınmaqla tərtib olunmuş tədris planı təsdiq edildildən sonra Kitabxanaçılıq fakültəsinin dekanlığı BDU rektorluğuna və Azərbaycan Respublikasının Təhsil Nazirliyinə müraciət edərək yeni şöbəyə tələbə qəbulu yerlərinin ayrılmasına nail oldu.

Professor Abuzər Xələfovun yazdığına görə, bu məsələdə Azərbaycan Respublikası Nazirlər Soveti nəzdində Dövlət Mətbuat Komitəsinin sədri, görkəmli dövlət xadimi və jurnalist Rəşid Mahmudovun xüsusi xidməti olmuşdur. R.Mahmudov kitabşünas kadrlara respublikamızda böyük ehtiyac yaranması və belə kadrların hazırlanmasının zəruriliyi haqqında Azərbaycan hökumətinə müraciət etmiş və Nazirlər Sovetinin bu barədə qərar çıxarmasına nail olmuşdur.

Nəticədə 1991/1992-ci tədris ilində Azərbaycan Respublikası Nazirlər Soveti ölkəmizdə kitabşünas, nəşriyyat işi və redaktəetmə üzrə yüksək ixtisaslı kadrların hazırlanmasına böyük zərurət yarandığına görə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində "Kitabşünaslıq və kitab ticarətinin təşkili"

şöbəsinin yaradılması haqqında qərar qəbul etdi. Bu qərara əsasən 1991/1992-ci tədris ilində "Kitabşünaslıq və kitab ticarətinin təşkili" ixtisası üzrə tələbə qəbuluna başlanıldı. Bununla da həmin ixtisas üzrə ali dərəcəli mütəxəssis kadrların hazırlıq səviyyəsinin artırılması, elmi-tədqiqat işlərinin aparılması müvafiq kafedranın təşkilini zərurətə çevirdi. Çünki belə bir kafedranın təşkili nəşriyyatla, kitabın təbliği və yayılması ilə bağlı olan kitabşünaslıq ixtisası üzrə kadrların hazırlanması üçün əsaslı zəmin yarada bilərdi.

1992-ci ildə Kitabxanaçılıq fakültəsinin rəhbərliyi yeni yaradılmış "Kitabşünaslıq və kitab ticarətinin təşkili" şöbəsində tədris prosesini və elmi-metodik işi məqsədyönlü şəkildə qurmaq üçün müstəqil kafedranın yaradılması haqqında BDU-nun rektorluğu qarşısında məsələ qaldırdı. Bunun əsasında BDU-nun Böyük Elmi Şurası 10 fevral 1993-cü ildə Kitabxanaçılıq fakültəsində yeni kafedranın-Kitabşünaslıq və kitab ticarətinin təşkili kafedrasının yaradılması haqqında qərar qəbul etdi. 21 may 1993-cü il tarixli elana əsasən olunmuş Kitabşünaslıq və kitab ticarətinin təşkili kafedrasının müdiri vəzifəsinə professor Bayram Allahverdiyev seçildi.

Qeyd edək ki, Biblioqrafiyaşünaslıq kafedrasının bazasında yaradılmış Kitabşünaslıq və kitab ticarətinin təşkili kafedrasında həmin vaxt 5 əməkdaş çalışırdı: tarix elmləri doktoru, professor Bayram Allahverdiyev, tarix elmləri namizədi, dosent Hacı Həsənov, filologiya elmləri namizədi Rasim Süleymanov, baş müəllim Akif Əsədullayev və laborant Sevda Quliyeva.

1995/1996-cı tədris ilindən başlayaraq Mehmanəli Məmmədov, Ramiz Həmidov, İsmayıl Vəliyev və Nailə Mehrəlieva kimi yeni kadrların hesabına kafedranın elmi-pedaqoji potensialı daha da möhkəmləndi. Sonrakı illərdə kafedranın tədris prosesinə cümlədən professor Abuzər Xələfov, professor Lyudmila Səmədova, dosent Knyaz Aslan, filologiya elmləri namizədi Şəhla Quliyeva və digər təcrübəli mütəxəssislər də cəlb olundular.

1996/1997-ci tədris ilində "Kitabşünaslıq və kitab ticarətinin təşkili" ixtisası üzrə ilk mütəxəssislər BDU-nu bitirib bakalavr diplomu aldılar.

Kafedranın müəllim kontingenti ilə ardıcıl və məqsədyönlü şəkildə təminatı mütəxəssis kadrların hazırlanmasına, kitabşünaslıq, nəşriyyat işi və redaktəetmə ixtisasları üzrə tədris işinin daha yaxşı təşkilinə, elmi-tədqiqat fəaliyyətinin genişlənməsinə, müasir dövrün tələblərinə cavab verən tədris proqramlarının, dərsliklərin və dərs vəsaitlərinin tərtibinə əsaslı təsir göstərdi.

Azərbaycan Respublikasının müstəqiliyi və informasiya cəmiyyəti şəraitində nəşriyyat işində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin daha geniş imkanları nəzərə alınaraq BDU-nun Böyük Elmi Şurasının qərarına əsasən "Kitabşünaslıq və kitab ticarətinin təşkili" kafedrası 1997/1998-ci tədris ilindən "Kitabşünaslıq və Nəşriyyat işi kafedrası" adlandırılmış, bakalavriatura və magistratura səviyyələrində "Nəşriyyat işi və redaktəetmə" ixtisası üzrə kadr hazırlığına başlanılmışdır.

2000-ci illərdə Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının professor və müəllim heyətinin elmi-tədqiqat işlərinin istiqaməti xeyli genişlənmişdir. Res-



publikamızda müxtəlif nəşriyyatların və kitab ticarəti müəssisələrinin iş təcrübəsinin öyrənilməsi, nəşriyyat sistemi sahəsində mövcud olan problemlərin araşdırılması və onların aradan qaldırılması üçün tövsiyə və təkliflərin verilməsi, bütövlükdə nəşriyyat sisteminin inkişafına, kitab nəşri işinin təkmilləşdirilməsinə və kitabın yayılmasına elmi-metodik köməyin göstərilməsi kafedranın məqsədyönlü fəaliyyətinə əyani sübutdur. Bu dövrdə B.Allahverdiyevin "Ümumi kitab tarixi" (2003), İ.Vəliyevin "Ədəbi-bədii və uşaq kitablarının redaktəsi" (2002), "Redaktənin əsasları: Nəzəriyyə və təcrübə" (2002), "Redaktənin əsasları: Redaktənin metodikası" (2003), "Redaksiya-nəşriyyat işinin əsasları" (2004), S.Quliyevanın "Azərbaycan soraq-məlumat ədəbiyyatı: yaranması, müasir vəziyyəti və inkişaf perspektivləri" (2006), Ş.Quliyevanın "Müəllif hüququ" (2008) və s. kimi kitabları mütəxəssislərin marağına səbəb oldu.

Bu illərdə kafedranın professor-müəllim heyəti tədris işi aparmaqla bərabər, bir sıra yeni fənlər üzrə proqramlar, dərsliklər və dərs vəsaitləri hazırlığına xüsusi diqqət ayırmağa başlamışdılar. Onlar kitabşünaslığın tarixi, nəzəriyyəsi və metodik məsələləri, kitabşünaslığın, nəşriyyat işinin, kitab tarixinin və redaktənin aktual problemləri, kitab nəşri, kitab ticarəti, tərcümə ədəbiyyatının nəşri, xüsusilə klassik yazıçıların əsərlərinin nəşrinin öyrənilməsi, yayılması və təbliği, eləcə də kitab tipologiyası və başqa problemlər üzrə araşdırmalar aparır, dəyərli elmi əsərlər, monoqrafiyalar, elmi məqalələr və s. çap etdirirdilər.

Həmin dövrdə kafedra üzrə bakalavriatura səviyyəsində tədris olunan bütün fənlərin metodik göstərişləri də hazırlanmışdır. Məsələn: "Kitabçılıq işinin iqtisadiyyatı" (R.Həmidov, 2000); "Nəşriyyat və kitab ticarətinin biblioqrafiyası" (M.Məmmədov, 2000); "Redaktənin nəzəriyyəsi və təcrübəsi" (İ.Vəliyev, 2001); "Azərbaycan kitab tarixi" (B.Allahverdiyev, 2000); "Ümumi kitabşünaslıq" (B.Allahverdiyev, 2001); "Mətnşünaslığın əsasları" (İ.Vəliyev, 2001); "Nəşriyyat və poliqrafiya işinin əsasları" (İ.Vəliyev, 2001); "Kitabın istehsalı texnologiyası" (İ.Vəliyev, 2001); "Kitab çeşidi işinin nəzəriyyəsi və metodikası" (M.Məmmədov, 2003); "Nəşriyyat işində menecment və marketinq" (R.Həmidov, 2004); "Redaktor fəaliyyətinin kompüter təminatı" (Ş.Quliyeva, 2005); "Müəllif hüququ" (Ş.Quliyeva, 2005); "Kitabın təbliği və reklamı" (N.Mehrəliyeva, 2006), "Nəşrin redaktor hazırlığı" (V.Musalı, 2008) və s.

Bundan başqa, həmin illərdə Kitabşünaslıq və nəşriyyat işi kafedrasının magistratura səviyyəsində də əsas fənlər üzrə bir sıra proqramlar ("Kitabşünaslığın tarixi, nəzəriyyəsi və metodologiyasının əsasları" (B.Allahverdiyev, 2006); "Kitabşünaslığın müasir problemləri" (B.Allahverdiyev, 2006); "Kitab sosial və kütləvi kommunikasiya sistemində" (B.Allahverdiyev, 2006), "Mətn nəzəriyyəsi" (İ.Vəliyev, 2006), "Azərbaycan Respublikasının nəşriyyat sistemi" (B.Allahverdiyev, 2008); "Kitabın texniki redaktə problemləri" (V.Musalı, 2008); "Müxtəlif növ ədəbiyyatın redaktəsi" (Knyaz Aslan, 2009), "Redaksiya-nəşriyyat işində informasiya texnologiyası" (B.Allahverdiyev, 2009); "Nəşriyyat fəaliyyətinin hüquqi tənzimlənməsi" (Ə.Qasımov, 2009); "Nəşriy-

yat fəaliyyətinin iqtisadi təhlili" (R.Həmidov, 2009) və s. hazırlanmış və çap edilmişdir.

Kafedranın elmi-tədqiqat fəaliyyətində respublikamızın ayrı-ayrı nəşriyyatlarının iş təcrübəsinin, kitab ticarətinin öyrənilib ümumiləşdirilməsi, elmi-metodik nəticələr çıxarılması, nəşriyyat sistemində mövcud olan problemlərin araşdırılması və onların aradan qaldırılmasıüzrə elmi tövsiyələrin və təkliflərin verilməsi, eləcə də ölkəmizdə nəşriyyat sisteminin inkişaf etdirilməsinə, kitab nəşri işinin təkmilləşdirilməsinə, kitabın yayılmasına elmi-metodik kömək göstərilməsi əsas yer tutur.

Qeyd edək ki, 2012-ci ilin yanvar ayından Kitabşünaslıq və nəşriyyat işi kafedrasına Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Knyaz İlyas oğlu Aslan rəhbərlik edir. Dosent Knyaz Aslan eyni zamanda BDU Tədris Metodik Şurası Rəyasət Heyətinin üzvü, BDU TMŞ yanında tədris vəsaitlərinə nəşr hüququ (qrif) verən Daimi Komissiyanın üzvü, Kitabxanaçılıq-informasiya fakültəsi Elmi Şurasının üzvü, fakültə Tədris Metodik Şurasının sədri kimi fəallıq göstərir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi 2012-ci ildə 060205 – "Nəşriyyat işi və redaktəetmə" ixtisası üzrə magistratura səviyyəsinin təhsil proqramını, 2013-cü ildə isə 050205 – "Kitabşünaslıq" ixtisası üzrə bakalavriat səviyyəsinin təhsil proqramını - Ali Təhsil Pilləsinin Dövlət Standartını təsdiq etmişdir. Bununla da 2012-ci ildən Kitabşünaslıq və nəşriyyat işi kafedrasının fəaliyyətində yeni mərhələ başlamışdır.

Belə ki, "Kitabşünaslıq" ixtisası üzrə bakalavriat səviyyəsinin təhsil proqramına "Nəşriyyat işində marketinq", "Nəşriyyat işinin proqram təminatı", "Kalliqrafiyaya giriş", "Əlyazma kitablar", "Kitab yayımı və elektron ticarət", "Müasir dövrdə dünyada və Azərbaycanda kitab nəşri"; "Nəşriyyat işi və redaktəetmə" ixtisası üzrə magistratura səviyyəsinin təhsil proqramına isə "Elektron nəşriyyatlar", "Redaktor sənətinin aktual problemləri", "Nəşriyyat-poliqrafiya fəaliyyətinin menecment və marketinqi", "Nəşriyyat işində informasiya texnologiyaları və multimedia sistemləri", "Nəşriyyat və informasiya fəaliyyətinin hüquqi təminatı", "Nəşriyyatla kitabxananın qarşılıqlı əlaqələri" və s kimi yeni fənlər daxil edilmiş, onların proqramaları və buna uyğun olaraq mühazirə mətnləri hazırlanmışdır.

Hazırda Kitabşünaslıq və nəşriyyat işi kafedrasının təlim, tədris və tərbiyə işlərini 8 nəfərlik müəllim və laborant heyəti yerinə yetirir. Onlardan5 nəfəri fəlsəfə doktoru, dosent (Knyaz Aslan, Nailə Mehrəliyeva, Şəhla Quliyeva, Ələmdar Bayramov, Rasim Süleymanov); 2 nəfəri fəlsəfə doktoru, müəllim (Sevda Quliyeva, Leyla Abasova); 1 nəfəri baş laborantdır (Ellada Balayeva).

Ümumiyyətlə, 2015-2018-ci illərdə Kitabşünaslıq və Nəşriyyat işi kafedrası 050205 – "Kitabşünaslıq" ixtisası üzrə bakalavriat səviyyəsində tədris edilən fənlər üzrə yeni tələblərə uyğun olaraq 20-dən çox proqram hazırlamış və Təhsil Nazirliyinin qrifi ilə nəşr etdirmişdir. Məsələn, "Redaktənin əsasları", "Texniki redaktə", "Dünya kitab tarixi", "Uşaqədəbiyyatının redaktəsi", "Ədəbi və biblioqrafik redaktə", "Nəşrin bədii və texniki tərtibatı", "Mətnşünaslıq", "Ədəbi-bədii nəşrlərin redaktəsi", "Nəşrin elmi redaktəsi" (hamısının tərtibçisi K.Aslandır), "Kitabın təbliği və reklamı" (K.Aslan, N.Mehrəliyeva), "Azərbaycan kitabşünaslığı" (K.Aslan, R.Süleymanov), "Soraq-məlumat nəşrlər sistemi" (K.Aslan, S.Quliyeva), "Kitabın tipologiyası" (B.Allahverdiyev), "Çeşid işinin nəzəriyyə və metodikası" (Ş.Quliyeva), "Azərbaycan kitab tarixi" (L.Abasova) və digər fənlər üzrə proqramlar hazırlanaraq işıq üzü görmüşdür.



Bununla yanaşı, magistratura səviyyəsi üçün 060205 – "Nəşriyyat işi və redaktəetmə" ixtisaslaşması üzrə "Redaktor sənətinin aktual problemləri", "Müxtəlif ədəbiyyat növlərinin redaktəsi", "Nəşriyyat işində informasiya texnologiyaları və multimedia sistemləri", "Elektron nəşriyyatlar", "Nəşriyyatla kitabxananın qarşılıqlı əlaqələri" (hamısının tərtibçisi K.Aslandır), "Dövri nəşrlərin redaktor hazırlığı" (K.Aslan, N.Mehrəliyeva), "Tərcümə ədəbiyyatının redaktə xüsusiyyətləri" (K.Aslan, N.Mehrəliyeva), "Kitab kommunikasiya sistemində" (K.Aslan, N.Mehrəliyeva), "Mətn nəzəriyyəsi" (K.Aslan, N.Mehrəliyeva), "Nəşriyyat və informasiya fəaliyyətinin hüquqi təminatı" (Ş.Quliyeva) və s. fənlərə dair proqramlar nəşr edilmişdir.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 13 aprel 2012-ci il tarixli (protokol №06-R) qərarı ilə təsdiq edilmiş və Rəyasət Heyətinin 30 oktyabr 2015-ci il tarixli (protokol № 13-R) qərarı ilə əlavələr edilmiş "Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə elmi dərəcələrin verilməsi üzrə ixtisasların nomenklaturası"nın "Texnika elmləri" bölməsində 3356.01 indeksi "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" adlandırılmışdır ki, bu da Kitabşünaslıq və nəşriyyat işi kafedrasının elmi istiqamətinin inkişafına müəyyən təkan vermişdir.

Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının əməkdaşları dünyada və Azərbaycanda kitabın və kitabşünaslığın tarixi, nəzəriyyəsi, metodik məsələləri, kitabın tipologiyası, kitab nəşri, redaktə problemləri, elmi, elmi-kütləvi, istehsalat-təcrübi, siyasi, rəsmi, tədris, ədəbi-bədii, folklor, soraq-məlumat, dövri mətbuat, reklam nəşrləri və s. üzərində redaktor işinin xüsusiyyətləri, nəşriyyat işinin təşkili və idarə olunması, müəllif hüququ, elektron nəşrlər və elektron nəşriyyatlar, kitab ticarəti, kitab yayımı, müxtəlif ədəbiyyat növlərinin redaktəsi və nəşrə hazırlanması, tərcümə ədəbiyyatının nəşri, kitabın reklamı, təbliği, yayılması və s. kimi mühüm problemlər üzrə ardıcıl elmi tədqiqatlar aparırlar.

Kafedra əməkdaşları son illərdə müasir tələblərə cavab verən tədris-metodik vəsaitlərin hazırlanması və nəşri istiqamətində müəyyən nailiyyətlər qazanmış, xeyli tədris-metodik ədəbiyyatı, o cümlədən 1 ensiklopediya, 4 monoqrafiya, 64 proqram, 4 dərs vəsaiti, 2 kitab, 4 kitabça, eləcə də 200-dən artıq elmi məqalə və tezis çap etdirmişlər. Müəllimlər eyni zamanda son üç dövrdə nüfuzlu beynəlxalq jurnallarda 5 elmi məqalə dərc etdirmişlər.

Kafedra müdiri Knyaz Aslan ölkəmizin tarixində ilk dəfə 2015-ci ildə nəşr olunmuş "Azərbaycan Kitabxana Ensiklopediyası"nın hazırlanmasında tərtibçi və redaktor kimi fəal iştirak etmişdir.

Bununla yanaşı, son illərdə Knyaz Aslan və Rasim Süleymanovun "Azərbaycan kitabşünaslığı", Knyaz Aslan, Şəhla Tahirqızı, Nailə Mehrəliyevanın "Nəşriyyat işi və redaktə məsələləri", Bayram Allahverdiyevin "Kitabın tipologiyası", Bayram Allahverdiyev və Leyla Abasovanın "Mətn nəzəriyyəsi", "Ulu öndər Heydər Əliyevin kitab və kitab nəşri haqqında müdrik fikirləri", Leyla Abasovanın "Boz oğuz" nəşriyyatının yaranması və fəaliyyəti" adlı dərs vəsaitləri, monoqrafiyaları və s. kitabları nəşr olunmuşdur.

BDU-nun illik elmi-tədqiqat hesabatlarında Kitabşünaslıq və Nəşriyyat işi kafedrası elm və tədris sahəsində qazandığı nailiyyətlərə görə həmişə reytinq cədvəlinin ön sıralarında qərarlaşır.

Kitabşünaslıq və Nəşriyyat işi kafedrasında elmi-pedaqoji kadrların yetişdirilməsi ən əsas amillərdən biridir. Belə ki, 17 fevral 2015-ci ildə kafedranın dissertantı İradə Hacı qızı Ələsgərova "Azərbaycan kitabının bədii və texniki tərtibat məsələləri" mövzusunda dissertasiya işini (elmi rəhbər prof. B.V.Allahverdiyev) Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya 5 noyabr 2014-cü il tarixli 194 №-li əmri ilə Bakı Dövlət Universiteti nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasında müdafiə etmiş, 3356.01 "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Daha sonra 17 dekabr 2015-ci ildə kafedranın dissertantı Leyla Qabil qızı Abasova "Azərbaycan Dövlət Nəşriyyatının – "Azərnəşr"in yaranması və fəaliyyəti" mövzusunda mövzusunda dissertasiya işini (elmi rəhbər prof. B.V.Allahverdiyev) Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 iyun 2015-ci il tarixli 144 №-li əmri ilə Bakı Dövlət Universiteti nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasında müdafiə etmiş, 3356.01 "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

2018-ci ildə BDU-nun Kitabşünaslıq və Nəşriyyat işi kafedrası elmi-pedaqoji kadrların yetişdirilməsinə də öz töhfəsini verməyə çalışmışdır. Belə ki, kafedra müdiri dos. K.Aslan Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının doktorantı Sevda Elman qızı Səfərovanın 3356.01 - "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Müstəqillik illərində Azərbaycanda dərsliklərin nəşri təhsil islahatlarinin əsas amili kimi (2001-2011-ci illər)" mövzusunda təqdim etdiyi dissertasiya işinin elmi rəhbəri olmuşdur. Bu dissertasiya işinin kafedrada ilkin və son müzakirələri təşkil edilmiş, daha sonra 2018-ci ilin sentyabr ayında onun müdafiəsinə razılıq alınması üçün və Birdəfəlik Dissertasiya Şurasının yaradılması haqqında Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına Bakı Dövlət Universiteti rektorunun məktubu göndərilmişdir.



Hazırda "Nəşriyyat işi və redaktəetmə" ixtisası üzrə II kursada 3 nəfər, I kursda isə 4 nəfər magistrant təhsil alır.

Eyni zamanda, son illərdə Knyaz Aslanın "Azərbaycanda nəşriyyat işinin aktual problemləri", "Redaktənin aktual problemləri: müasir xüsusiyyətlər, məqsəd və vəzifələr, texnoloji tələblər", "Redaktor fəaliyyətinin əsas istiqamətləri", "Redaktə prosesinin müasir xüsusiyyətləri", B.Allahverdiyevin "Azərbaycanda kənd təsərrüfatı kitabının tipologiyasının yaranması və inkişafı", "Mətnin quruluşu, növ müxtəlifliyi və təhlili", N.Mehrəliyevanın "Dünya ədəbiyyatının Azərbaycan dilinə tərcüməsi və nəşri", Ə.Bayramovun "Azərbaycanda özəl nəşriyyat sistemi", "Müasir nəşriyyat sistemində elektron nəşr texnologiyalarının yeri", "Azərbaycanda kitab yayımının ümumi məsələləri", Ş.Quliyevanın "Nəşriyyat fəaliyyətində jurnal nəşrinin aparatına dair", R.Süleymanovun "Azərbaycan kitab nəşrinin inkişaf tarixində Heydər Əliyev mərhələsi", "Heydər Əliyev və müstəqil Azərbaycanda milli dərsliklər, dərs vəsaitlərinin hazırlanması və nəşri məsələləri" və s. kimi elmi məqalələri mövcud sahədəki boşluqların doldurulması baxımından mühüm əhəmiyyətə malikdir.

Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının nəzdində "Kitabşünaslıq və Nəşriyyat işi" dərnəyi (rəhbər fəlsəfə doktoru Leyla Abasova) fəaliyyət göstərir. Kafedranın hər bir müəllimi tədris ili ərzində fakültənin Tələbə Elmi Cəmiyyəti xətti ilə 2-3 tələbənin maraqlı mövzularda çıxışlarına rəhbərlik etmişdir. Cari tədris ilində "Kitabşünaslıq və Nəşriyyat işi" dərnəyinin5 iclası keçirilmiş və 15 məruzə dinlənilmişdir.

Kafedra əməkdaşlarından dos. K.Aslanın, dos. Ə.Bayramovun, dos. N.Mehrəliyevanın, dos. Ş.Quliyevanın, dos. R.Süleymanovun, fəl. dok. S.Quliyevanın, fəl. dok. L.Abasovanın rəhbərlik etdiyi tələbələr TEC-in konfranslarında Azərbaycanda kitabşünaslığın mühüm elmi-təcrübi məsələləri, kitab tarixi, nəşriyyat işinin müasir vəziyyəti, nəşriyyatların informasiya-kommunikasiya texnologiyaları ilə təchizi və s. kimi aktual məruzələrlə maraqlı çıxışlar etmişlər.

2018-ci ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabşünaslıq və Nəşriyyat işi kafedrası üzrəaparılanelmi-tədqiqat işlərinin nəticələri bilavasitə kitabşünaslıq təhsili üzrə bakalavr və magistr pilləsi üzrə tədris prosesinin təkmilləşməsinə, elmi cəhətdən yeniləşməsinə yönəlir. Alınmış ən mühüm elmi nəticələr ölkənin iri dövlət və qeyri-dövlət nəşriyyatlarının fəaliyyətlərinin daha da yaxşılaşdırılmasına kömək məqsədilə tövsiyə şəklində təqdim olunur.

Hazırda Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müəllim heyəti "Kitabşünaslıq" elmi istiqaməti üzrə "İnformasiya cəmiyyəti şəraitində Azərbaycanda kitabşünaslığın, kitabçılıq işinin, nəşriyyat-poliqrafiya fəaliyyətinin müasir vəziyyəti və inkişaf istiqamətləri" kompleks problemi üzərində elmi-tədqiqat aparır. Müasir dövrdə Azərbaycanda kitab nəşrinin və redaktəetmənin xüsusiyyətlərinin araşdırılması, kitabşünaslıq elminin qarşısında duran əsas vəzifələrin müəyyənləşdirilməsi, kitab nəşri və redaktə sahəsində qarşıya çıxan mühüm problemlərin elmi-təcrübi baxımdan məqsədyönlü həll variantlarının

əsaslandırılması, zəruri təklif və tövsiyələrin ümumiləşdirilməsi kafedranın fəaliyyətində prioritet hədəf, məqsəd və vəzifələrdir.

Dünyada və Azərbaycanda kitab nəşrinin inkişaf konsepsiyası və əsas təmayülləri, redaktənin tarixi təcrübəsi və ənənələri, mətn üzərində redaktə işinin mühüm xüsusiyyətləri, redaktor düzəlişlərinin növləri, redaktə prosesində nöqsanların aradan qaldırılması yolları, mətnin dil və üslubu üzərində redaktə işinin elmi prinsipləri, müəllif əlyazmasında fakt materialının dəqiqləşdirilməsi qaydaları, əlyazmanın kompozisiyası üzərində redaktə işinin prinsiplərini, kitab aparatı üzərində redaktor işinin istiqamətləri, dərindən mənimsəməklə kitabları nəşrə hazırlamaq, redaktə etmək, onlar üzərində işləmək vərdişlərinə yiyələnir. Azərbaycanda kitab nəşrinin və redaktəetmənin xüsusiyyətlərinin araşdırılması, kitabşünaslıq elminin qarşısında duran əsas vəzifələrin müəyyənləşdirilməsi, kitab nəşri və redaktə sahəsində qarşıya çıxan mühüm problemlərin elmi-təcrübi baxımdan məqsədyönlü həll variantlarının əsaslandırılması, zəruri təklif və tövsiyələrin ümumiləşdirilməsi kafedranın fəaliyyətində prioritet hədəf, məqsəd və vəzifələrdir.

Kitabşünaslıq və Nəşriyyat işi kafedrası son illərdə Türkiyə, Rusiya, Ukrayna, İran və digər ölkələrin müvafiq ali məktəbləri və kafedraları ilə beynəlxalq əməkdaşlığın qurulması və inkişafı sahəsində müəyyən işlər görmüşdür.

Kafedra Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Azərbaycan" nəşriyyatı, AMEA-nın "Elm" nəşriyyatı, M.Füzuli adına Respublika Əlyazmalar İnstitutu, N.Gəncəvi adına Ədəbiyyat İnstitutu, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Azərbaycan Milli Kitabxanası ilə sıx əməkdaşlıq şəraitində işləmiş, birgə elmi tədbirlərdə, o cümlədən elmi konfranslarda iştirak etmişdir.

Eyni zamanda kafedra son illərdə Türkiyə, Rusiya, Ukrayna, İran və digər ölkələrin müvafiq ali məktəbləri və kafedraları ilə beynəlxalq əməkdaşlığın qurulması və inkişafı sahəsində müəyyən işlər görməyə səy göstərir.

"Kitabşünaslıq" ixtisasının hazırkı dövrün tələbatına uyğun şəkildə yeniləşməsində Avropa ali məktəblərinin, o cümlədən Almaniyada fəaliyyət göstərən İohan Höte adına Frankfurt Mayn Dövlət Universitetinin, eləcə də MDB ölkələrindəki ali təhsil ocaqlarının, xüsusilə İvan Fyodorov adına Moskva Dövlət Mətbuat Universitetinin təcrübəsindən geniş istifadə edilmişdir.

Müstəqillik illərində Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının kadr hazırlığı sahəsindəki fəaliyyəti həm kəmiyyət, həm də keyfiyyət cəhətdən yaxşılaşmış, bakalavriatura və magistratura təhsil pillələri üzrə kitabşünaslıq və nəşriyyat işi sahəsində 500-dən çox kadr hazırlanmışdır. Bu kadrların hazırlanmasında kafedranın müəllim heyəti və universal ixtisasların cəmləşdiyi Bakı Dövlət Universitetinin yüksək maddi-texniki bazası çox mühüm rol oynayır. Bunu bütövlükdə Azərbaycanda kitabçılıq işi, kitab nəşri, nəşriyyat işi və redaktəetmə sahəsinin inkişafına dövlət qayğısı və diqqətin əyani təzahürü kimi dəyərləndirmək olar.



Hazırda Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının məzunları respublikamızın dövlət və qeyri-dövlət nəşriyyat-poliqrafiya müəssisələrində, kitab yayımı və kitab ticarəti müəssisələrində, kütləvi informasiya vasitələrində, o cümlədən qəzet, jurnal, radio, televiziya və internet şəbəkələrində, onlayn mediada səmərəli fəaliyyət göstərirlər. Onlar ölkəmizdə kitab nəşrinin, kitabın təbliğinin və yayımının, müxtəlif nəşrlərin redaktəsinin, ümumiyyətlə, kitab mədəniyyətinin formalaşmasına və inkişafına müasir dövrün tələblərinə uyğun şəkildə mühüm töhfələr verir, doğma universitetin şöhrətini həmişə uca tuturlar. Bir çoxunun elmlər namizədi (fəlsəfə doktoru) və ya elmlər doktoru elmi dərəcəsi almış həmin mütəxəssislərin əksəriyyəti hazırda nəşriyyat-poliqrafiya sahəsində çalışır, milli kitab mədəniyyətinin inkişafında xüsusi rol oynayır.

Tədris, metodiki və elmi işə kömək məqsədilə kafedranın müəllim heyətinin köməyi ilə 2008-2018-ci illərdə "Kitabşünaslıq və nəşriyyat işi" adlı elmi-nəzəri və təcrübi jurnal çap edilmişdir.

Bundan başqa, 2015-ci ildə dosent Knyaz Aslanın təsisçiliyi və baş redaktorluğu ilə kafedrada "Kitabşünaslıq və redaktor sənəti" adlı ikinci bir elmi-nəzəri və təcrübi-metodik jurnal da fəaliyyətə başlamışdır. İndiyə qədər 8 nömrəsi işıq üzü görən bu jurnalda kitabşünaslıq, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, informatika, kitab nəşru, redaktə məsələləri, eləcə də dilçilik, rəssamlıq və s. kimi sahələrə dair yüzə yaxın elmi məqalə dərc edilmişdir. Onu da qeyd edək ki, Bakı Dövlət Universitetinin Kitabşünaslıq və nəşriyyat işi kafedrası 2015-ci ildən "Kitabşünaslıq və Redaktor Sənəti" adlı elmi-nəzəri və təcrübi-metodik jurnal nəşr etdirir. Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır (Şəhadətnamə № 4021, 01.12.2015). Jurnal 18.10.2018-ci il tarixində Beynəlxalq ISSN Mərkəzi (Paris, Fransa) tərəfindən ISSN (ISSN-L) 2617-6939 saylı nömrə ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.

Kafedra əməkdaşlarından 2 nəfəri – dos. K.Aslan, və dos. R.Süleymanov "Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi" adına layiq görülmüş, eləcə də müəllimlərin əksəriyyəti dəfələrlə Təhsil Nazirliyinin, Respublika Azad Həmkarlar Komitəsinin, BDU-nun Fəxri Fərmanları ilə təltif edilmişlər.

*Fakültənin fəaliyyətinin əsas istiqamətləri.* 70 il müddətinə Kitabxanaçılıq informasiya fakültəsi 7 mindən çox yüksək ixtisaslı kadrlar hazırlamışdır. Beləki, 1952-1961-ci illər ərzində fakültəni əyani və qiyabi şöbə üzrə 250 nəfərə yaxın kadr bitirmişdir. Bunlardan 200-ü əyani şöbənin, 50-i isə qiyabi şöbənin payına düşür. Müstəqil kitabxanaçılıq fakültəsi yaranandan yəni 1962-1970-ci ilə kimi fakültəni bitirən məzunların sayı 450 nəfər olmuşdur. Onların təhsil formaları aşağıdakı kimidir: Əyani şöbənin 217 nəfər, qiyabi şöbənin 202 nəfər, axşam şöbəsinə 31 nəfər. Növbəti 10 illikdə yəni 1971-1980 ci illərdə fakültənin məzunlarının sayı 800 ü keçmişdir. Bundan 50 % dən çoxu əyani şöbənin payına düşümüşdür. Axşam şöbəsində qəbulun artması məzunların sayına da təsir göstərmişdir. Həmin dövrdə 200 dən çox axşam şöbəsinə kadr hazırlanmışdır.

Kitabxanaçılıq-informasiya fakültəsinin inkişafının mühüm mərhələlərdən biri XX əsrin 80 ci illəri hesab edilir. Məhz bu dövrdə fakültədə kadr hazırlığı əvvəlki onilliklə müqayisədə 2 dəfədən çox artaraq 2000 dən çox olmuşdur. Bu dövrdə əyani və qiyabi şöbələrdə məzun buraxılışısay etibarilə demək olar ki, bərabər olmuşdur.

Müstəqillik illərində Kitabxanaçılıq-informasiya fakültəsinin kadrhazırlığı sahəsində fəaliyyəti həm kəmiyyət həm də keyfiyyət cəhətdən yaxşılaşdırılmışdır. Yalnız 1991-1996-cı illərdə fakültənin 1200-dən çox məzunu olmuşdur. Fakültənin maddi-texniki bazasının və elmi-pedaqoji kadr təminatı sisteminin yaxşılaşdırılması 1997 ci ildə çoxpilləli təhsil sisteminə keçidinyeni mərhələsinin başlanğıcı oldu. Fakültədə ayrı-ayrı ixtisaslar üzrə magistr pilləsi üzrə kadr hazırlığına başlanmışdır. Son 10 ildə Kitabxanaçılıq və informasiya fakültəsində bütün pillələr üzrə 2300-ə yaxın kadr hazırlanmışdır. Bunlar təhsilin əyani və qiyabi formasında həyata keçirilmişdir. Hazırda fakültədə bakalavr pilləsi üzrə 430 tələbə təhsil alır. Onlardan 279 nəfəri əyani, 151 nəfəri qiyabi şöbəsinin tələbələridir. Magistr pilləsində 40 nəfər magistrant təhsil alır. Onlardan 23 nəfəri əyani, 17 nəfəri qiyabi təhsil alır. Fakültədə 3 aspirant və 8 dissertant elmi fəaliyyətini davam etdirir. Fakültədə tədrisin düzgün və elmi formada təşkilində fakültə metod şurası və fakültə elmi şurası fəaliyyət göstərir.

Bakalavr pilləsi üzrə HS 151700 kitabxanaşünaslıq-biblioqrafiyaşünaslıq, HS-061000 kitabşünaslıq istiqamətində, magistratura üzrə HSM 150017 kitabxanaşünaslıq, HSM 150020 biblioqrafiyaşünaslıq, HSM 150023 kitabxana fondlarının formalşması və istifadəsi, HSM 060005 nəşriyyat işi və redaktəetmə ixtisası üzrə kadr hazırlanır.

Kitabxanaçılıq-informasiya fakültəsindəyüksək ixtisaslı kadrların hazırlanmasında, elmi tədqiqat və metodiki işlərin aparılmasında, pedaqoji kadrların seçilib yerləşdirilməsində 1962-ci ildən yaradılan Fakültə Elmi Şurasının rolu böyükdür.

Kitabxanaçılıq-informasiya fakültəsinin Elmi Şurası fəliyyət göstərdiyi 58 il müddətində şərəfli bir yol keçmiş fakültənin tarixində həlledici ol oynamışdır. Fakültədə elə bir tədris, elm və tərbiyə işi olmamışdır ki, Fakültə Elmi Şuranın müzakirəsindən kənarda qalsın. Şura fakültə tədris planının, fənn proqramlarının, metodik vəsaitlərin, ixtisas kursu, seçmə kurs və ixtisaslaşma proqramların, istehsalat təcrübəsi proqramlarının müzakirə və təsdiqində, elmi-tədqiqat işlərinin istiqamətinin müəyyənləşdirilməsində, dissertasiya işi və diplom işi mövzularının təsdiqində fakültənin ali orqanı kimi mühüm işlər görür. Həmçinin Şura fakültədə təlim-tərbiyə işlərinin məqsədyönlü aparılmasına, tədris prossesinin keyfiyyətinin daha da yüksəlməsinə istiqamət verir. Dekan və fakültəyə qəbul edilən bütün müəllimlər Şurada seçilməli olduqlarından professor müəllim heyətinin komplektləşdirilməsində, seçilib yerləşdirilməsində Şuranın rolu olduqca böyükdür. Kitabxanaçılıq-informasiya fakültəsinin Elmi Şurası respublikamızda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslığa dair yeganə elm mərkəzi olduğundan burada tez-tez kitabxana işinin inkişafına,əhaliyə kitabxana xidmətinin aktual problemlərinə dair məsələlər müzakirə edilir, məruzələr dinlənilir, elmi tövsiyələr hazırlanır.



60-70-ci illərdə Elmi Şuranın fəaliyyətində əsas yerlərdən birini müstəqil Kitabxanaçılıq fakültəsi üçün fərdi tədrsi planının təsdiqi tutmuşdur. Belə plan 70, 80, 90-cı illərdə üç dəfə tərtib və təsdiq edilmişdir. Bunlar o zaman ittifaq miqyasında keyfiyyətli planlar kimi qiymətləndirilmişdir. 90-cı illərdə fakültənin Elmi Şurası Azərbaycan RespublikasınınTəhsil Qanununa əsasən bütün fənn proqramlaının təzədən işlənib hazırlanmış variantlarını müzakirə və təsdiq etmişdir.Məlum olduğu kimi yüksək ixtisaslı kadrların hazırlığının strategiyası hesab edilən tədris planlarının hazırlanması və tətbiqi dövrün tələblərinə, elmi-texniki tərəqqinin səviyyəsinə və ixtisasın gələcək perspektivlərinə əsaslanır. Kitabxanaçılıq-informasiya fakültəsi mövcud olduğu 70 il ərzində 9 tədris planından istifadə edilmişdir. İlk tədris planı 1947- ci ildə tərtib edilmişdir. Bu plan keçmiş sovetlər birliyində ilk universitet tədris planı idi. 1955-ci ildə kitabxanaşünas-biblioqraf ixtisası üzrə ilk Universitet tədris planı tətbiq edildi. 1970-ci ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin yeni tədris planı təsdiq edildi. 1984 cü ildə ilk dəfə olaraq ölkə üzrə Kitabxanaçılıq-informasiya fakültəsinin tədris planı təsdiq edildi. Azərbaycanın müstəqilliyi illərində təhsil qanunun tələblərinə uyğun olaraq bakalavr pilləsi üzrə tədris planı işlənib hazırlandı.

Kollektiv 1990-cı illərin əvvəllərindən başlayaraq ilk növbədə fakültədə tədris edilən bütün fənn proqramlarını yenidən işləməyə başladı. Proqramların yenidən işlənməsi, bəzi proqramların isə yenidən tərtib edilməsi olduqca məsuliyyətli idi. Bütün proqramlar suverenliyin qarşıya qoyduğu tələblərə cavab verməli, milli ideologiyamıza uyğun yenidən işlənməli, bəşəri sərvətlərlə zənginləşməli idi. Proqramların məzmunundan kommunist ideologiyasının çıxarılması, yeni demokratik əsasda işlənilməsi tələb edilirdi.

Yeni iqtisadi və siyasi sistemin təşəkkül tapdığı bir zamanda başlıca söhbət kitabxana işi sahəsində mövcud prinsiplərin yeniləşdirilməsindən və qismən dəyişdirilməsindən deyil, onların köklü surətdə təzədən formalaşdırılmasından gedirdi. Bu da hər şeydən əvvəl keçmiş totalitar rejimdən, sosializm quruculuğu illərindən miras qalmış kitabxanaların ideologiyalaşdırılması, sinfilik, partiyalılıq kimi antielmi və qeyri-humanist prinsiplərin rədd edilməsini, onun dünyəvi, humanist prinsiplərlə əvəzlənməsini tələb edirdi.

Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin kollektivi müstəqillik illərində Azərbaycan tarixində ilk dəfə olaraq orijinal milli dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar yazıb çap etdirməyə müvəffəq oldu.

Azərbaycan Respublikasının müstəqiliyi və informasiya cəmiyyəti şəraitində kitabxana işində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin daha geniş imkanlara malik olduğu nəzərə alınaraq, 2003-cü ildə fakültənin adının dəyişdirilməsi və "Kitabxanaçılıq-informasiya fakültəsi" qoyulması təşəbbüsü irəli sürüldü. Bu təşəbbüsü həyata keçirmək üçüntədris planına informatikaya, informasiya texnologiyasına, kitabxana işinin komplekt-

ləşdirilməsinə dair yeni fənlər salındı. Beləliklə, Kitabxanaçılıq fakültəsinin tədris planına "Kitabxana işinin kompüterləşdirilməsinin əsasları", "Kitabxana iqtisadiyyatı", "Kitabxana və informasiya texnologiyası", "Kitabxanaçılıq informatikası", "Kitabxana marketinqi", "Kitabxana menecmenti" və s. kimi tamamilə yeni predmetlər daxil edildi. Bundan sonra BDU rektoru Kitabxanaçılıq fakültəsinin "Kitabxanaçılıq-informasiya fakültəsi" adlandırılması haqqında əmr imzaladı.

Kitabxanaçılıq-informasiya ixtisasının hazırkı dövrün tələbatına uyğun şəkildə yeniləşməsində ABŞ-ın İllinoys və Urbana-Şampeyn universitetlərinin, Fransanın Nitsa Universitetinin Lion Ali Məktəbinin, Belçikanın Namur Ali Kitabxanaçılıq Məktəbinin, eləcə də Rusiya ali məktəblərinin təcrübələrindən geniş istifadə edilmişdir.

Son dövrlərdə Bakı Dövlət Universitetində həyata keçirilən islahatlar Kitabxanaçılıq-informasiya fakültəsindən də yan keçməmiş, fakültənin kadr potensialı xeyli möhkəmlənmiş, cavan kadrların rəhbər vəzifələrə işə çəkilməsi təmin edilmiş, öz elmi yaradıcılıq fəaliyyəti ilə fərqlənən dosent Azad Qurbanov dekan, dosent Knyaz Aslan Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent Elçin Əhmədov isə Kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsinə irəli çəkilmişlər.

Kitabxanaçılıq-informasiya fakültəsində tədris işinin səmərəli təşkilində böyük rolu olan elmi-metodik iş daha da canlanmış, yeni dərsliklər və dərs vəsaitləri ilə təminat sahəsində xeyli dönüş yaranmışdır.

Kitabxanaçılıq-informasiya fakültəsinin Azərbaycanda kitabxanaşünaslıq,biblioqrafiyaşünaslıq və kitabşünaslıq təhsili üzrə elmi-tədqiqat mərkəzi kimi formalaşmışdır.Fakültədə elmi-tədqiqat işləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

1. Namizədlik və doktorluq dissertasiya işlərinin hazırlanması və müdafiəsi
2. Monoqrafiyaların çap edilməsi
3. Müvafiq sahələr üzrə tədrsi metodik nəşrlərin hazırlanması və çap edilməsi
4. Elmi və elmi-kütləvi xarakterli məqalələrin yazılması və dərc edilməsi

Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq üzrə elmi fikrin ilk mərkəzi 1947-ci ildə yaradılmış "Kitabxanaşünaslıq və bilioqrafiya" kafedrası olmuşdur. Bu prosses əvvəlcə tədris materiallarının hazırlanması ilə başlamış, 60-70-ci illərdənciddi tədqiqatlara davam etmişdir. Qeyd olunan sahələrin müstəqil elmi istiqamət kimi formalaşması Kitabxanaçılıq fakültəsinin ilk ali ixtisas təhsilli müəllimlərin fədakar elmi əməyini nəticəsində mümkün olmuşlar.

Aparılan araşdırmalar göstərir ki, 70 ildə fakültənin əməkdaşlarının **3500** -dən çox elmi əsəri çap olunmuşdur. Kafedralar üzrə aparıcı mövqe Kitabxanaşünaslıq kafedrasına məxsusdur. Belə ki bəhs edilən dövrdə Kitabxanaşünaslıq kafedrsının əməkdaşlarından 1800-dən çox müxtəlif xarakterli elmi işi çap olunmuşdur. Biblioqrafiyaşünaslıq kafedrası üzrə əməkdaşların 500-ə yaxın əsərin çap olunduğu müəyyən olunmuşdur. Kitabşünslıq və nəşriyyat işi kafedrasında professor-müəllim jeyətinin 800-ə yaxın əsəri işıq üzü görmüşdür. Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasında isə bu rəqəm 1200-ü keçmişdir. Kitabxanaşünaslıq kafedrasıüzrə aparılan tədqiqatların nəticəsi olaraq qədim dövrdən zəmanəmizə qədər Azərbaycan kitabxana işinin tarixi kompleks şəkildə öyrənilmişdir. Eyni zamanda ayrı-ayrı sahəvi kitabxanaqların yaranması, inkişaf mərhələləri, müxtəlif regionlarda kitabxana işinin tarixi və təşkili məsələləri, müxtəlif kitabxana prosseslərinin təşəkkülü və inkişaf qanunauyğunluqları müstəqil tədqiqat işlərinin obyektinə çevrilmişdir. Azərbaycanda kitabxanaşünaslıq üzrə elmi tədqiqat işlərinin təkili və istiqamətləndirilməsi sahəsində Əməkdar elm xadimi taix elmləri doktoru, professor A.A.Xələfovun xüsusi xidmətləri olmuşdur. Onun rəhbərliyi ilə son 60 ildə Azərbaycan milli kitabxanaşünaslıq elmi məktəbi formalaşmışdır. Yüksək ixtisaslı kitabxanaşünas alimlər korpusunun formalaşması da məhz kitabxanaşünaslıq kafedrasının fəaliyyəti ilə bilavasitə əlaqədar olmuşdur. Bu tədqiqatların nəticəsində professor A.A.Xələfovun 350 yə yaxın elmi əsərləri çap olunmuşdur. Nəticə etibarilə Azərbaycanda Həmkarlar ittifaqı Kitabxanlarının, Naxçıvan Muxtar Respublikasında, Dağlıq Qarabağ vilayətində kitabxana işinin, partiya kitabxanalarının, kitabxanalarının metodik təminat sisteminin, kənd əhalisinə kitabxana xidmətinin, neft sənayesi üzrə mütəxəssislərə kitabxana-informasiya xidmətinin, muşaq və məktəb kitabxanalarının, kitabxanalararası abonomentin, ayrı-ayrı kitabxanaların kompüterləşdirilməsi tarixinin və müasir vəziyyətinin tədqiqi məhz bu kafedranın elmi-tədqiqat fəaliyyətinin nəticəsi olaraq həyata keçirilmişdir.

Biblioqrafiyaşünaslıq üzrə elmi fikrin mərkəzi kimi Kitabxanaçılıq-informasiya fakültəsinin müvafiq kafedrası xüsusi mövqeyə malikdir. Kafedranın əməkdaşlarının elmi tədqiqat istiqaməti Azərbaycan biblioqrafiyasının tarixinin, təşkili və idarə olunmasının müəyyənləşdirilməsi, mövcud biblioqrafik resurslardan səmərəli istifadənin optimallaşdırılmasına təsir edən konsepsiyasının hazırlanmasından ibarətdir. Bu istiqamətdə aparılan tədqiqatların bir qismi Azərbaycan biblioqrafiyasının tarixinin kökülü şəkildə öyrənilməsi ilə bağlıdır. Tədqiqatların digər istiqaməti ayrı-ayrı kitabxana və informasiya oranlarının fəaliyyətinin öyrənilməsi və ümumiləşdirilməsi ilə əlaqdardır. Son illərdə Biblioqrafiyaşünaslıq kafedrasında aparılan tədqiqatların ayrıca istiqaməti kimi biblioqrafik resursların yerləşməsi və ondan səmərəli istifadə məsələlərinin tədqiqidir. Kafedranı professor-müəllim heyətinin yaradıcılığının kəmiyyət xarakteristkası baxımından təhlili göstərir ki Əməkdar mədniyyət işçisi, professor Zöhrab Əliyev, görkəmli biblioqraf alim Əşrəf Xələfov, dosent Nadir İsmayılov və başqaları daha səmərəli fəaliyyət göstərmişlər. Professor Zöhrab Əliyevin yaradıcılığında mərkəzi mövzu Azərbaycaan biblioqrafiyasının tarixinin tədqiq edilməsidir. O, bu istiqamətdə dissertasiya müdafiə etmiş, bir neçə dərslik və dərs vəsaiti, onlarla elmi məqalə çap etdirmişdir. Dosent Əşrəf Xələfov isə Azərbaycan ədəbi biblioqrafiyasını onun ilk qaynaqları olan təzkirələrin biblioqrafik informasiya mənbəyi kimi tarixini və mahiyyətini tədqiq edən nüfuzlu alimdir. Dosent Nadir İsmayılovun elmi-tədqiqat fəaliyyəti Azər-

baycanın kitabxana-biblioqrafiya resurslarının təşəkkülü, inkişafı, yerləşməsinin müasir vəziyyəti və ondan səmərəli istifadə edilməsi ilə bağlıdır.

Kitabxanaçılıq-informasiya fakültəsinin aparıcı kafedralarından biri də "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasıdır. Kafedranın elmi tədqiqat istiqaməti kitabxanaların informasiya resurslarının tədqiqi və ondan istifadənin səmərəli yollarının müəyyən edilməsidir. Bu istiqamətdə tədqiqatların təşkili sahəsində tarix elmləri doktoru, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, profesor Xəlil İsmayılovun fəaliyyətini də xüsusi qeyd etmək lazımdır. Onun bu istiqamətdə 200-dən çox elm əsəri işıq üzü görmüşdür. Bu əsərlər monoqrafiya, dərslik, dərs vəsaiti və elmi məqalələr şəklində nəşr olunmuşdur.

Kitabxanaçılıq-informasiya fakültəsinin kafedralarından biri də "Kitabşünaslıq və nəşriyyat işi "kafedrasıdır. Kafedranın elmi-tədqiqat istiqaməti Azərbaycan kitab mədəniyyətinin tarixivə müasir vəziyyətinin öyrənilməsi, nəşriyyat işinin təşkili məsələlərinin tədqiq edilməsidir. Bu istiqamətdə aparılan tədqiqatlarda mərhum professor Bayram Allahverdiyevin fəaliyyəti daha çox diqqəti cəlb edir. Onun yaradıcılığında orta əsr Azərbaycan kitabının xüsusiyyətləri, Azərbaycan texniki kitabının tarixi və s məsələlər mühüm yer tutur. Onun 150-dən çox müxtəlif xarakterli əsərləri çap olunub. Kafedranın mərhum professoru İ.Vəliyev, dosent N.Mehrəliyeva, dosent K.Aslan, elmlər namizədi Ş.Quliyeva kafedranın elmi-tədqiqat istiqamətinin ayrı-ayrı problemlərinə daie məhsuldar elmi-pedaqoji fəaliyyət göstərirlər.

Kitabxanaçılıq-informasiya fakültəsində tələbələrin elmi-tədqiqat vərdişlərinin formalaşmasında Tələbə Elmi Cəmiyyəti mühüm rol oynayır. Fakültənin TEC özündə 4 dərnəyi birləşdirir. "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq", "Kitabxana resursları və informasiya axtarış sistemləri" və "Kitabşünaslıq". Fakültədə TEC-in 70 illik fəaliyyətinin təcrübəsi göstərir ki yüksək ixtisaslı kadr korpusunun hazırlığında bu qurum çox mühüm rol oynayır.

Hələ 1949-cu ildə " Kitabxanaşünaslıq və biblioqrafiya" kafedrası nəzdində ilk dərnək " Kitabxanaşünaslıq və biblioqrafiya"dərnəyi yarandı. 1962-ci ildə müstəqil Kitabxanaçılıq fakültəsi yarananda məhz həmin dərnəyin bazasında Tələbə Elmi Cəmiyyəti təşkili olunmuşdur. 60 və 70-ci illərin ikinci yarısından etibarən fakültə Tələbə Elmi Cəmiyyətinin yaxın əlaqələri yaranmağa başlamış və sonrakı dövrlərdə bu proses daha dinamik xarakter almışdır. Fakültə TEC-i Moskva, Sankt-Peterburq, Kiyev, Daşkənd Mədəniyyət İnstitutları ilə Vilnüs Dövlət Universitetinin, Tiflis Pedaqoji Universitetinin müvafiq şöbələri ilə əlaqədar bu dövrdə yaranmış, fakültənin tələbələri sonrakı dövrlərdə həmin institut və universitetlərin təşkil etdiyi Elmi Konfranslarında müvəffəqiyyətlə çıxış etmiş və eləcə də, BDU-nun Kitabxanaçılıq və informasiya fakültəsinin təşkil etdiyi konfranslarda həmin institutun tələbələrin fəal iştirak etmişdir. Belə ki, 1982-ci ildə BDU nun kitabxanaçılıq-informasiya fakültəsinin təşkil etdiyi Beynəlxalq Konfransda fakültənin tələbələri ilə yanaşı qeyd olunan Universitet və institutların tələbləri də yaxından iştirak edir. Fakültədə



TEC-in xətti ilə tələbələr həm də hələ 70-ci illərdə ənənə halını almış Respublika Tələbə Elmi Konfransında da fəallıq göstərmiş və çox mühüm göstəricilərə imza atmışlar.

Azərbaycanın müstəqillik illərində fakültədə TEC-in fəaliyyəti yeni dövrün tələblərinə uyğun qurulması dərnəklərdə məruzələrin müzakirəsi ilə yanaşı elmi disputlar, olimpiada və müsabiqələrin keçirilməsi və s. üsullar geniş istifadə olunur. Hal-hazırda bakalavr və magistr pilləsi üzrə TEC-in 160-dan çox üzvü vardır.

Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi beynəlxalq əlaqələr sahəsində zəngin təcrübəyə malikdir. Fakültə fəaliyyətə başladığı ilk vaxtlardan etibarən keçmiş SSRİ-nin nüfuzlu elm, təhsil mərkəzləri ilə əlaqələr yaratmağa başlamış və bu əlaqələr tədrisin keyfiyyətinin və mütəxəssis hazırlığının səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərir. Fakültənin Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Sankt-Peterburq Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Daşkənd Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Vilnus Dövlət Universiteti, Tbilisi Dövlət Pedaqoji İnstitutunun Kitabxanaçılıq fakültəsi ilə sıx elmi əlaqələri və əməkdaşlıq olmuşdur. Bu elmi əlaqələrin yaradılmasında və inkişafında böyük rol və müstəsna xidmətləri olan alimlər arasında prof. Abuzər Xələfov, prof. Zöhrab Əliyev, professor Xəlil İsmayılov, professor Bayram Allahverdiyev, dosent Rasim Kazımovun və başqalarının xüsusi rolu olmuşdur.

Kitabxanaçılıq və informasiya fakültəsi Respublika daxilində də müvafiq elm, təhsil və mədəniyyət ocaqları ilə sıx elmi əməkdaşlıq şəraitində fəaliyyət göstərmişdir. Bu baxımından fakültənin M.F.Axundov adına Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Prezident Kitabxanası və digər Respublika əhəmiyyətli kitabxanalarla əlaqələri daim inkişaf edir. Fakültənin bu əlaqələri, xüsusilə də Respublikada dövlət müstəqilliyi bərpa edildikdən sonra daha da intensivləşmişdir.

Fakültənin məzunları demək olar ki Azərbaycan Milli Kitabxanasından başlamış kənd kitabxanalarına qədər bütün kitabxana şəbəkələrdə müvəffəqiyyətlə çalışmaqdadırlar. Respublikanın bütün kitabxana müəssisələrində elmi, elmi-texniki, xüsusi, kütləvi kitabxanalarda rəhbər işlərdə, mühüm elmi vəzifələrdə çalışan məzunlarımız ən dərin biliyi, professionallığı, yüksək elmi intellektual səviyyəsi və böyük vətəndaşlığı ilə fərqlənir.

Kitabxanaçılıq-informasiya fakültəsi Respublikada yaranmış belə bir ictimai fikirlə fəxr edə bilər ki,bu fakültənin yetişdirmələri öz elmi dünyagörüşü, intellektual səviyyəsi, professionallığı, yüksək mədəniyyət və dərin biliyi ilə fərqlənirlər. Bunun səbəbi isə fakültə tələbələrinin sosial mənşəyindən, tələblərin əksəriyyətnin sadə zəhmətkeş balaları olması ilə bilavasitə bağlıdır. Bu fikirlə qismən razılaşmaq olsada, tələbələrin yüksək ziyalı kimi yetişməsinin əsas səbəbini fakültədə olan ciddi təhsil intizamında, tələbələrə qarşı obyektivlikdə, ayrı-seçkilik olmamasında, tədris prosesinin yüksək səviyyədə təşkilində fakültədə mühazirə oxuyan bütün müəllimlərin, həm ixtisas həmdə digər elmi

fənlərdən dərs deyən müəllimlərin vicdanlı zəhmətində, işçi kollektivinin əmək intizamında və sağlam ictimai mühitdə axtarmaq lazımdır.

Doğurdan da kitabxanaçılıq fakültəsinin məzunları sırasında elmlər doktoru, professor, elmlər namizədi, dosent, görkəmli yazıçılar, şair, ictimai və dövlət xadimləri, Milli Məclisin üzvləri, jurnalistlər, hüquq mühafizə orqanları əməkdaşları, inzibati işçilər, ayrı-ayrı nazirliklərdə müvəffəqiyyətlə çalışan kadrlar çoxdur. Fakültənin kollektivi həmişə tanınmış yetirmələri, görkəmli məzunları ilə fəxr edir, onlarla müntəzəm yaradıcılıq əlaqələri saxlayır, maraqlı görüşlər keçirir. Məzunların istehsalatda, ictimai həyatında özlərinə layiqli yer tutması, mədəniyyətimizin inkişafında aparıcı qüvvələrindən birinə çevrilməsi, sosial tərəqqidə yaxından iştirak etməsi fakültə kollektivinin iftixarı və şərəfidir.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**


1. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // "Azərbaycan" qəz., Bakı, 2007, 21 aprel.
2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəzeti, 1999, 14 mart.
3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu // Xalq qəzeti, 1998, 18 aprel.
4. Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanunu (30 may 2000-ci il) // Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III kitab. – Bakı: Qanun, 2001. – S. 522-526.
5. Aslan K., Qurbanov A. Kitabxanaçılıq-informasiya fakültəsi – 65 // Kitabxanaşünaslıq və informasiya, 2012, №3 (9), s.12-34.
6. Aslan K. kitabşünaslıq və nəşriyyat işi kafedrasının inkişaf tarixi, müasir vəziyyəti və təkmilləşdirilməsi istiqamətləri // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal.-B., 2019.-№1(28).-s.139-160
7. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi:Dərslik/redaktoru: N.İ.İsmayılov.-Bakı:Bakı Universiteti nəşriyyatı,2007.-190 s.
8. Əhmədov E.Y. Kitabxanaşünaslıq kafedrası (1947-2019-cü illər)// Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal.-B., 2019.-№1(28).-s.94-110.
9. Kitabxanaçılıq-informasiya fakültəsi – 60: Biblioqrafik məlumat kitabı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008, 274 s.
10. Kitabxanaçılıq-informasiya fakültəsi: Biobiblioqrafik lüğət. Bakı: Mütərcim, 2012, 220 s.
11. Xələfov A. Azərbaycanda ali kitabxanaçılıq təhsili. Bakı, 1998,124 s.
12. Xələfov A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar). B., 2006, 106 s.
13. İsmayılov X.İ. kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası BDU-nun 100 illiyi ərəfəsində// Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal.-B., 2019.-№1(28).-s.126-138
14. İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafiya. B., 2000, 440 s.





15. İsmayılov X. Kitabxana menecmentinin əsasları: dərs vəsaiti. Bakı, 2005, 199 s.
16. İsmayılov X., İsmayılov N. Kitabxanaçılıq fakültəsi 50 ildə // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, təcrübi jurnal.-B., 1997.-№1.-8-17.
17. İsmayılov X, Məmmədov Ə. Azərbaycanın kitabxana mütəxəssisləri İFLA-nın konfransında ildə // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, təcrübi jurnal.-B., 2001.-№2.-133-139.
18. İsmayılov N.İ. Biblioqafiyaşünaslıq kafedrası// Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal.-B., 2019.-№1(28).-s.111-125.
19. Qardaşov R.Ə. Azərbaycanda kitabxanaçılıq təhsili (yaranması, inkişafı və müasir vəziyyəti).-Bakı: Mütərcim, 2018.-188 s